Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 282 (8009) CÜMƏ, 14 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik




**Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

**Dövlət başçısı tədbirdə çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, 2018-ci il sona yaxınlaşır. Hər il idmançılarla görüş zamanı biz ilin idman yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə etmişdir.

Dünyada isə bildiyiniz kimi, 2018-ci ildə bir çox təhlükəli proseslər getmişdir və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşmişdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr demək olar ki, 2018-ci ilin mənzərəsini əks etdirir.

Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilmişdir. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir. Əlbəttə, biz dünyada gedən prosesləri izləyirik. Biz bu proseslərə biganə qala bilmərik. Çünki həm Avropada, həm bizim regionumuzda, Yaxın Şərqdə gedən proseslər narahatlıq doğurur.

Bildiyiniz kimi, bu il Ermənistanda çox ciddi dəyişikliklər baş vermişdir. İyirmi il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edirdi və bu rejimin acı sonu məntiqə tam uyğundur. Onu da deməliyəm ki, bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynamışdır. Çünki bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olduq.

Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib. Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni, bütün bu və başqa amillər, əlbəttə, bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salmışdır.

İşğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə olmuşdur. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq sıradan çıxıb. Yəni, bu, bizim qonşuluğumuzda baş vermiş hadisələrdir. Əlbəttə, hesab edirəm ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə, bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqelərimiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

Eyni zamanda, Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq sözlər deyil. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olmuşdur. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapmışdır. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapmışdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır. Mən deyəndə ki, bizim beynəlxalq nüfuzumuz artır, bunu nəzərdə tuturam. Eyni zamanda, Azərbaycan xalqı bunu yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur.

Dünən Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin növbəti görüşü olmuşdur. Bu, birinci görüş deyil. Bundan əvvəl Amerika və Rusiya baş qərargah rəislərinin Bakıda görüşü olmuşdur. NATO-Rusiya hərbi rəhbərlərinin görüşü də mütəmadi olaraq Azərbaycanda keçirilir. Bu, çox əlamətdar hadisədir. Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkə var və bu ölkələr arasında bu görüş məhz Azərbaycanda keçirilir. Avropada 50-yə yaxın ölkə var, ancaq bu görüş Azərbaycanda keçirilir. Nəyə görə? Bunun bir neçə səbəbi var. İlk növbədə, bizə olan inam. Azərbaycan çox etibarlı tərəfdaşdır, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, verdiyimiz hər bir sözə əməl edirik və sözümüzün arxasında dayanırıq. Digər tərəfdən, bizə olan hörmət. Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü təsdiq edə bilmişik. Hesab edirəm ki, bu, ikinci səbəbdir. Üçüncü səbəb ondan ibarətdir ki, həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz var. Rusiya ilə strateji tərəfdaşlıq əlaqələrimiz gündən-günə güclənir.

*Ardı 2-ci səh.*




Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yeni inşa olunmuş Gənclər Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev görülən işlər barədə dövlət başçısına məlumat verdi.

Gənclər Mərkəzi yenidən qurulan istirahət parkında yerləşir. Ümumi ərazisi 2,3 hektar olan parkda yenidənqurma işlərinə 2014-cü ilin sonunda başlanılıb. Bu istirahət mərkəzinin ərazisində idman meydançası və açıq havada müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün səhnə quraşdırılıb. Parkda inşa olunan Gənclər Mərkəzinin üçmərtəbəli binasının qarşısında ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılıb.

Dövlət başçısı ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.

Sonra Prezident İlham Əliyev Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, Mərkəzin ümumi sahəsi 5800 kvadratmetrdir. Mərkəzin yüksək zövqlə inşa edilən binasının interyeri müasirliyi ilə seçilir. Burada 300 yerlik böyük konfrans zalı yaradılıb. Zalda rayonun ictimai-siyasi, mədəni həyatı ilə bağlı əlamətdar tədbirlərin keçirilməsi üçün hər cür şərait mövcuddur.

Gənclər Mərkəzində Heydər Əliyev Muzeyi fəaliyyət göstərəcək.

Azərbaycan tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə silsilə tədbirlər keçirilir. Gənclər Mərkəzində Heydər Əliyev Muzeyinin yaradılması ulu öndərin zəngin və çoxşaxəli irsinin gənclər arasında təbliğində və öyrənilməsində mühüm rol oynayır. Muzeydə ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar var. Burada, həmçinin ulu öndərin çoxşaxəli siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolar və sənədlər nümayiş olunur.

*Ardı 2-ci səh.*

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Ankarada baş vermiş dəmir yolu qəzası nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## Mədəni dəyərlərə sadiqlik örnəyi

Tarixən hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşının kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olmuşdur.



Bu nəcib insanlar həmişə saf və ali məqsədlər uğrunda mübarizələrin önündə dayanmış, əlverişli siyasi məqamlardan məharətlə, ustalıqla bəhrələnmiş, xalqın düşüncə sistemini, mental xüsusiyyətlərini istənilən ictimai-iqtisadi formasiyada hifz edərək möhkəm mənəvi təməl üzərində qurub gələcəyə doğru inamla addımlamışlar.

*Ardı 6-cı səh.*

## 8,02 milyard dollarlıq müsbət saldo

2018-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan dünyanın 178 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 104 ölkəyə məhsul ixrac, 171 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu dövrdə ölkənin xarici ticarət dövriyyəsi 26 milyard 534,3 milyon, o cümlədən ixracın dəyəri 17 milyard 281,7 milyon, idxalın dəyəri 9 milyard 252,6 milyon dollar təşkil etmiş, nəticədə 8 milyard 29,1 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2017-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 36,4 (o cümlədən ixrac 38,3, idxal 33) faiz, real ifadədə isə dövriyyə 1,3 (o cümlədən ixrac 1, idxal 1,9) faiz artmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, ixracın 27,7 faizini İtaliyaya, 9,3 faizini Türkiyəyə, 6,3 faizini İsrailə, 4,7 faizini Hindistana, hər biri 4,5 faiz olmaqla Çexiya və Tayvana (Çinin əyaləti), 4,3 faizini Almaniyaya, 3,5 faizini Kanadaya, 3,4 faizini İndoneziyaya, 3,2 faizini Rusiyaya, 3 faizini Portuqaliyaya, 2,8 faizini Fransaya, 2,7 faizini Gürcüstana, qalan 20,1 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

*Ardı 7-ci səh.*



## Azərbaycana olan yüksək beynəlxalq etimadın nümunəsi

### Bakı bu il ikinci dəfədir ki, Rusiya-NATO yüksək hərbi rəhbərliyinin danışıqlarına evsahibliyi edir

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov arasında növbəti görüş dekabrın 12-də yenə Bakıda keçirildi.

Bundan əvvəl isə bu iki general arasında görüş aprel ayında Bakıda baş tutmuşdu. Valeri Gerasimovun 2017-ci ilin fevralında ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin rəhbəri, general Cozef Danford, 2017-ci ilin sentyabrında NATO Hərbi Komitəsinin rəhbəri, general Petr Pavel ilə görüşlərinə də evsahibliyini Bakı etmişdi.

#### Risklərin qarşısının alınmasına xidmət edən görüşlər

Rusiya ilə NATO və ABŞ arasında aparılan danışıqlar dünyanın siyasi-hərbi gündəmində kifayət qədər ciddi hadisələrdən biridir. Ona görə ki, bu danışıqları aparanlar qarşı qütblərdə dayanan, beynəlxalq münasibətlərdə xüsusi çəkisi və iddiası olan tərəflərdir. Belə görüşlərdə hansısa sıradan olan məsələlər deyil, olduqca vacib, Avropanı, Amerikanı və bütövlükdə dünyanı narahat edən məsələlər, hərbi-siyasi nüfuz uğrunda mübarizədə yaranan ziddiyyətlər müzakirə olunur.

*Ardı 7-ci səh.*

# İdman sahəsində uğurlarımız beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir

*Əvvəli 1-ci səh.*

















NATO ilə bir çox proqramlar əsasında işləyirik, Əfqanıstana sülhməramlı əməliyyatların keçirilməsi üçün böyük dəstək oluruq, yardımlar edirik və digər amillər burada rol oynayıb. Amma bir daha Azərbaycan ictimaiyyətinin diqqətini bu məsələyə cəlb etmək istəyirəm ki, məhz Azərbaycanda bu dünya üçün çox böyük əhəmiyyət daşıyan görüş keçirilir.

Azərbaycan iqtisadi sahədə bütün vəzifələri uğurla icra edir. İqtisadiyyatımız artır, sosial məsələlər öz həllini tapır. 2018-ci ildə bir çox önəmli infrastruktur layihəsi uğurla icra olunmuşdur, nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlər əldə edilmişdir. Bütün bunları biz etmişik, Azərbaycan xalqının böyük dəstəyi ilə buna nail olmuşuq.

Beləliklə, ilə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olmuşdur, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq. Eyni zamanda, onu da böyük məmnunluq hissi ilə elə qeyd etməliyəm ki, bizim idmançılarımızın mütləq əksəriyyəti həyatda da, məişətdə də gözəl nümunə göstərir, vətənpərvərlik, ləyaqət nümunəsi göstərir. Əlbəttə ki, idmançılara cəmiyyətdə olan hörmət çox yüksək səviyyədədir. Uşaqlar, yeniyetmələr bizim çempionlarımıza oxşamaq istəyirlər. Bu da təbiidir. Mən əminəm ki, bundan sonra da idmançılarımız bizi, xalqımızı sevindirəcəklər.

Gözəl gənc nəsil yetişir. Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurları əldə edirik. Biz Rio Olimpiya Oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, beş-altı il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak ediblər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bilmişdik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq. Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya Oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya Oyunlarında ləyaqətlə təmsil edək.

Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır.

Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib. Əlbəttə ki, biz Avropa, İslam Həmrəyliyi oyunlarını xatırlaya bilərik. Bu il ölkəmizdə dünya, Avropa çempionatları keçirilmişdir. "Formula-1" yarışı üç ildir Azərbaycanda, Bakıda keçirilir. Bu il və keçən il ümumi rəyə və bu məsələ ilə məşğul olan ictimai qurumların fikrinə görə, bizim yarışımız - Bakı yarışı ən gözəl yarış olmuşdur. Bu da çox gözəl hadisədir. Çünki bu da göstərir ki, bizim qəbul edilmiş hər bir qərarımız düzgün qərardır, gözəl nəticə verir.

Bilirsiniz ki, ölkəmizə turistlərin axını davam edir. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 11 ayında 6 faizdən çox artmışdır. Düzdür, əvvəlki illərə nisbətdə artım bir qədər aşağıdır, ancaq biz bilməliyik ki, baza artır. Yəni, hər il bundan sonrakı ildə bu yüksək artımı əldə etmək daha çətin olacaq. Ancaq bu istiqamətdə də çox ciddi işlər aparılır. Deyə bilərəm ki, şəhərin mərkəzində keçirilən Formula 1 yarışının turistlərin cəlb edilməsində xüsusilə çox böyük rolu, payı var.

Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Həm Beynəlxalq Olimpiya Komitəsi, həm də Avropa Olimpiya Komitəsi bizim fəaliyyətimizə çox yüksək qiymət verir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Biz bu yarışa da ciddi hazırlaşırıq. Bizdə əldə edilmiş təcrübə deməyə əsas verir ki, bu yarış yüksək səviyyədə keçiriləcək.

Gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəkdir. Bu görüşü Bakıda keçirmək o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, mövcud olan infrastruktur, idman obyektləri, gözəl Olimpiya Stadionu, gözəl hotellər, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində rol oynayıb.

Yəni, biz inamla irəliyə gedirik. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq. Bu il də bu mükafatlar verilir, o cümlədən görkəmli idman nümayəndələrimizə 25 mənzil veriləcəkdir.

Mən bir daha Azərbaycan idmançılarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Əziz idmançılar, sizə yeni qələbələr, uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edildi.

Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə İsmayıl Həşimova, Tanziliya Deminaya, Yaqub Məmmədova, Vahid Məmmədova, Şamil Əlimzanova, İbrahim İbrahimova və Svetlana İşməmmədovaya "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının döş nişanlarını və vəsiqələrini təqdim etdi.

Dövlət başçısı Azərbaycanda idman səhiyyəsinin inkişafında xidmətlərinə görə Esmiralda Ələkbərovaya "Əməkdar həkim" fəxri adının döş nişanını və vəsiqəsini təqdim etdi.

Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elşad Nərimanova, Elxan Əliyevə və Ağasəlim Mircavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olundu.

Sonra Prezident İlham Əliyev Elçin Zeynalova "Olimpiya" ordenini təqdim etdi.

Tədbirdə, həmçinin Oktay Mehtiyev, Azər Aslanov, Vüqar Qasımov, Mustafa Əhmədov, Azad Əsgərov və Ceyhun Əşrəfov Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanları ilə təltif olundular.

Daha sonra Prezident İlham Əliyev 2018-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

* * *

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professoru Elşad Nərimanov Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində akademiyada uğurlu islahatların aparıldığını bildirdi. Qeyd etdi ki, həyata keçirilən islahatlar çərçivəsində Azərbaycan Gimnastika Federasiyası Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman zalını təmir etdirib və bu zal zəruri gimnastika avadanlığı və alətləri ilə təchiz olunub. Akademiyanın bütün beynəlxalq tədbirlərdə iştirakına, icra olunan layihələrə verdiyi dəstəyə görə birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya minnətdarlıq edən Elşad Nərimanov ona təqdim olunan mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

* * *

Əməkdar bədən tərbiyəsi və idman xadimi Elçin Zeynalov ulu öndər Heydər Əliyevi dərin ehtiramla xatırladı, onunla görüşlərini yada saldı. Ümummilli liderin idman ictimaiyyətinə hər zaman qayğı ilə yanaşdığını, bunun Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurla çıxış etmələrinə stimul verdiyini bildirdi.

Elçin Zeynalov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya ölkədə idmanın inkişafına və idmançılara göstərdikləri diqqət və qayğıya görə təşəkkürlərini çatdırdı.

* * *

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi.

# Prezident İlham Əliyevdən gənclərə növbəti töhfə






*Əvvəli 1-ci səh.*




Gənclər Mərkəzində virtual atıcılıq otağı, foto, rəsm, dizayn və poliqrafiya studiyaları, fortepiano, rəqs və intellektual oyun zalları yaradılıb. Burada, həmçinin kiçik konfrans zalı, gənclik kafesi, kompüter, xarici dil kursları, linqafon kabineti, şahmat otağı, virtual sinif var. Mərkəzdə 90 yerlik kinozal və elektron kitabxana da gənclərin ixtiyarına veriləcək. Bundan başqa, burada nikah zalları da yaradılıb.

Bu cür müasir Gənclər Mərkəzinin inşası bir daha sübut edir ki, ölkəmizdə gənclər siyasətinin reallaşdırılması istiqamətində görülən çoxşaxəli tədbirlər ardıcıl xarakter daşıyır. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasətinin davam etdirilməsi Prezident İlham Əliyevin fəaliyyətində mühüm yerlərdən birini tutur. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir.

Sabunçu rayonunda Gənclər Mərkəzinin inşa edilməsi bu gün ölkəmizdə Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, onların fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramların ardıcıl xarakter aldığını göstərir.

## Keniya Respublikasının Prezidenti zati-aliləri cənab Uhuru Kenyattaya

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Keniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## Neftçala rayonunun Neftçala-Xol Qaraqaşlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qırx dörd min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən Neftçala-Xol Qaraqaşlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 18,2 milyon (on səkkiz milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## T.E.Qarayevin Azərbaycan Respublikasının Litva Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tamerlan Elmar oğlu Qarayev Azərbaycan Respublikasının Litva Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

# 2018-ci il Azərbaycan-Rusiya münasibətləri baxımından məhsuldar il olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Rusiya xarici işlər nazirini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli Sergey Viktoroviç, mən Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz. Sizin səfəriniz bizim ikitərəfli əməkdaşlığın vacib məsələlərini müzakirə etmək üçün yaxşı imkandır. Özü də bu səfər Yeni il ərəfəsindədir.

Səfər bizim birgə işimizin 2019-cu il üçün planlarını müəyyənləşdirmək, həm də bu il hansı işlərin görüldüyünü təhlil etmək üçün yaxşı imkandır. Deməliyəm ki, 2018-ci il münasibətlərimizin inkişafı baxımından çox məhsuldar il olub. Yüksək səviyyədə xeyli görüşlər, o cümlədən mənim Rusiyaya sentyabrın əvvəlində rəsmi səfərim və Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin sentyabrın sonlarında Azərbaycana səfəri olub. Bu səfərlər çərçivəsində biz qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etmişik, gələcək əməkdaşlıq yollarını müəyyənləşdirmişik. Həm də əminəm ki, uğurla həyata keçiriləcək çoxlu sayda sənəd imzalanıb. Bu, bizim münasibətlərimizə əlavə dinamika verəcək.

Biz beynəlxalq strukturlarda fəal qarşılıqlı fəaliyyət göstəririk. Lap bu yaxınlarda - bir həftə əvvəl MDB-nin Sankt-Peterburqda qeyri-formal sammiti keçirildi. Bu, təşkilatın üzvlərinin fəaliyyətini gücləndirmək üçün çox əlamətdar hadisə idi. Bu il aktiv fəaliyyətə başlayan hökumətlərarası komissiyanın yeni tərkibi formalaşdırılıb. Bu yaxınlarda görüşəcəklər. Həmçinin Rusiya-Azərbaycan İşgüzar Şurasının yeni tərkibi formalaşdırılıb. Yəni, biz ticari-iqtisadi əlaqələrə, investisiya proqramlarına dinamika vermişik. Düşünürəm ki, nəticələr çox yaxşı olacaq.

Əlbəttə, biz bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri də müzakirə edəcəyik. Ümid edirik ki, 2019-cu il nizamlanma prosesinə yeni impuls verəcək. Əlbəttə ki, münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın səylərinə ümid edirik. Biz bir çox sahələrdə qarşılıqlı fəaliyyət göstəririk. Mən, həmçinin Şimal-Cənub dəhlizinin yaradılması ilə bağlı bizim fəaliyyətimizin nəticələrini məmnunluqla qeyd etmək istərdim. Biz bu istiqamətdə fəal qarşılıqlı fəaliyyət göstəririk. Müvafiq strukturlar, nəqliyyat qurumları çox məhsuldar işləyirlər. Biz bu il artıq yaxşı nəticələri görürük. Biz digər tərəfdaşlarımızla, qonşularımızla bu layihəni mümkün qədər tez başa çatdırmaq üçün birgə səylərimizi davam etdirəcəyik.

Mətbuat qarşısında qeyd etmək istədiyim son məsələ bizim humanitar əməkdaşlığımız haqqındadır. Bildiyiniz kimi, bu yaxınlarda Rusiya və Azərbaycan prezidentlərinin himayədarlığı ilə Bakıda növbəti Humanitar Forum keçirilib. Prezident Vladimir Putin forum iştirakçılarına məktub göndərib. Bu forum humanitar məsələləri müzakirə etmək üçün mühüm beynəlxalq meydandır.

Bir daha münasibətlərimizin bu cür təşəkkülündən məmnunluq ifadə edirəm və ümidvaram ki, gələcəkdə də belə yaxşı nəticələr olacaq. Bir daha xoş gəlmisiniz.

* * *

Rusiyanın xarici işlər naziri **Sergey LAVROV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Son altı ayda Azərbaycanın sədrlik etdiyi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının xətti ilə sabah Bakıda keçiriləcək tədbirlərlə bağlı bizi qəbul etdiyinizə görə çox sağ olun. Bu vəzifənin həmkarlarınız tərəfindən çox uğurla yerinə yetirilməsi münasibətilə Sizi təbrik edirəm. Bizim mövqeyimiz ondan ibarətdir ki, bu təşkilat Qara dəniz regionunda qarşılıqlı fəaliyyət çərçivəsində birgə işimizi səfərbər etməyə davam etməlidir.

Sizə Vladimir Vladimiroviç Putinin ən xoş arzularını və salamlarını çatdırıram. O, Sizin strateji tərəfdaşlığımızı irəli aparmağa imkan verən şəxsi münasibətinizi yüksək qiymətləndirir. Artıq hesabladığımız kimi, sizin bu il altı dəfə keçirilən görüşləriniz, son görüşləriniz, o cümlədən qarşılıqlı səfərlər zamanı əldə olunan razılaşmalar yerinə yetirilir. Hökumətlərarası Komissiyanın sabahkı iclası da yəqin ki, sizin razılaşdırdığınız istiqamətlər - ticarətin asanlaşdırılması, büdcə-vergi sahəsinin rəqəmsallaşdırılması, nəqliyyat sahəsində əməkdaşlıq, birgə müəssisələrin yaradılması, Siz qeyd etdiyiniz kimi, humanitar əlaqələr, ən müxtəlif sahələr, o cümlədən bizim əməkdaşlığımızın vacib sahəsi olan Rusiya və Azərbaycanın regionları arasındakı qarşılıqlı fəaliyyətə təkan verəcək. Biz Azərbaycanla beynəlxalq arenada, BMT-də, Avropa Şurasında qarşılıqlı fəaliyyəti qiymətləndiririk. İndi Avropa Şurasının strukturlarında bütün üzv ölkələrin bərabər hüquqlarının təmin olunduğu bu təşkilatın Nizamnaməsinin əsas qaydalarına yenidən baxılması cəhdləri var. Biz ATƏT-də də birlikdə işləyirik.

Əlbəttə, biz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Bakı ilə Yerevan arasında birbaşa dialoqa kömək göstərməyə davam etmək istəyirik. Bilirəm ki, Sizin Ermənistanın baş naziri ilə birbaşa danışıqlarınız olub. Mənim həmkarım və dostum Elmar Məhərrəm oğlu Məmmədyarovun Ermənistanın xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyanla danışıqları olub. Bu gün biz əlbəttə ki, Sizin irəliyə doğru hansı addımlar atılacağını necə dəyərləndirdiyinizi bilməkdə son dərəcə maraqlıyıq. İstəyirik ki, münaqişə ədalətli, qarşılıqlı məqbul həll olunsun. Rusiya Federasiyası həm öz səyləri ilə, həm də ATƏT-in Rusiya, Fransa və ABŞ-ın daxil olduğu Minsk qrupunun həmsədr üçlüyünün üzvü kimi bu cür razılaşmaların əldə edilməsinə nail olmaq üçün əlindən gələni edəcək. Bir daha bu imkana görə çox sağ olun.

## Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında xidmətləri olan aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Həşimov İsmayıl Teymur oğlu
Demina Tanziliya Zaxarovna
Məmmədov Yaqub Əkbər oğlu
Məmmədov Vahid Şərafəddin oğlu
Əlimzanov Şamil Əhmədcanoviç
İbrahimov İbrahim Eldar oğlu
İşməmmədova Svetlana Bəşirovna

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 dekabr 2018-ci il*

## E.Ə.Ələkbərovaya "Əməkdar həkim" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında idman səhiyyəsinin inkişafında xidmətlərinə görə Ələkbərova Esmiralda Əhəd qızına "Əməkdar həkim" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 dekabr 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Nərimanov Elşad Əhməd oğlu
Əliyev Elxan İzzət oğlu
Mircavadov Ağasəlim Seyidəhməd oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 dekabr 2018-ci il*

## A.Ş.Quliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səmərəli diaspor fəaliyyətinə görə Aidə Şahvələd qızı Quliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## X.A.Xələfovun Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xələf Alı oğlu Xələfov Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## R.İ.Məmmədovun Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Razim İsa oğlu Məmmədov Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## T.E.Qarayevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında, eyni zamanda Filippin Respublikasında, Timor-Leste Demokratik Respublikasında, Sinqapur Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tamerlan Elmar oğlu Qarayev Azərbaycan Respublikasının İndoneziya Respublikasında, eyni zamanda Filippin Respublikasında, Timor-Leste Demokratik Respublikasında, Sinqapur Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 245 nömrəli Fərmanının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 245 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 963) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1126; 2016, № 12, maddə 2068; 2017, № 8, maddə 1521) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların Siyahısı"na aşağıdakı məzmunda 7-2-ci və 7-3-cü hissələr əlavə edilsin:

"7-2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

7-3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Lotereyalar haqqında" (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 309; 2009, № 7, maddə 517; 2016, № 3, maddə 422; 2017, № 2, maddə 144; 2018, № 2, maddə 154) Azərbaycan Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddə üzrə:

1.1. 2.0.2-ci maddədən "forması" sözü çıxarılsın;

1.2. 2.0.11-ci maddəyə "lotereyada" sözündən əvvəl "18 yaşına çatmış, könüllü şəkildə" sözləri əlavə edilsin;

1.3. 2.0.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.0.16-cı və 2.0.17-ci maddələr əlavə edilsin:

"2.0.16. elektron lotereya - lotereyanın keçirilmə formasından asılı olmayaraq, lotereya təşkilatçısının lotereya biletlərinin yayılmasını və lotereya iştirakçıları arasında uduş fondunun oynanılmasını informasiya sistemləri və şəbəkələri vasitəsilə həyata keçirdiyi lotereya;

2.0.17. vətəndaş qüsursuzluğu - mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə məhkumluğun olmaması, müvafiq vəzifəni tutmasına və ya peşə fəaliyyəti ilə məşğul olmağına məhkəmə qərarı ilə qoyulmuş qadağanın olmaması.".

2. 3.2.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"3.2.4. lotereyaların təşkili və keçirilməsi ilə bağlı nəzarətin həyata keçirilməsi qaydasının müəyyən edilməsi;".

3. 4-cü maddə üzrə:

3.1. 4.5-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Stimullaşdırıcı lotereyalar yalnız tirajlı formada keçirilir.";

3.2. 4.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"4.9. Lotereyanın şərtlərində dəyişiklik edilməsi üçün lotereya təşkilatçısı uduş fondunun oynanılması tarixinə azı 15 (on beş) iş günü qalmış maliyyə bazarlarına nəzarət orqanına müraciət edir. Lotereyanın şərtlərində dəyişiklik edilməsi ilə bağlı müraciət maliyyə bazarlarına nəzarət orqanına daxil olduğu gün qeydiyyata alınır və həmin tarixdən etibarən 5 (beş) iş günündən gec olmayaraq, maliyyə bazarlarına nəzarət orqanı dəyişikliklər edilməsinə icazənin verilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul edir. Lotereyanın şərtlərində dəyişiklik edilməsinə razılıq verilməsi və ya bundan imtina edilməsi barədə qərar lotereya təşkilatçısına təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.".

4. 5-ci maddə üzrə:

4.1. 5.1-ci maddəyə "yaradılır" sözündən sonra "(elektron lotereyalar istisna olmaqla)" sözləri əlavə edilsin;

4.2. 5.4-cü maddədə "3 (üç)" sözləri "1 (bir)" sözləri ilə əvəz edilsin.

5. 6-cı maddə üzrə:

5.1. 6.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Elektron lotereyaların uduş fondu oyunun başlanması anınadək formalaşdırılmalıdır.";

5.2. 6.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Elektron lotereyaların uduş fondunun minimum həcmi müvafiq tiraj üzrə satılmış lotereya biletlərinin ümumi məbləğinin 50%-dən az ola bilməz.".

6. 7-ci maddə üzrə:

6.1. 7.1-ci maddədən "(stimullaşdırıcı lotereyalarda istifadə olunan lotereya biletləri istisna olmaqla)" sözləri çıxarılsın;

6.2. 7.1.5-ci maddəyə "qiyməti" sözündən sonra "(stimullaşdırıcı lotereyalarda istifadə olunan lotereya biletləri istisna olmaqla)" sözləri əlavə edilsin;

6.3. 7.1.9-cu maddəyə "məlumat" sözündən sonra "(elektron lotereyalarda istifadə olunan lotereya biletləri istisna olmaqla)" sözləri əlavə edilsin;

6.4. 7.6-cı maddənin birinci cümləsində "oynanılmasına ən azı 2 (iki) saat qalmış" sözləri "oynanılmasınadək" sözü ilə əvəz edilsin və ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Uduş fondunun oynanılmasından sonra təhvil verilməmiş lotereya biletləri satılmış hesab olunur.";

6.5. 7.7-ci maddəyə "təşkilatçısı tərəfindən" sözlərindən sonra "(uduşu ödənilmiş elektron biletlər informasiya sisteminin verilənlər bazasında)" sözləri əlavə edilsin.

7. 8-ci maddə üzrə:

7.1. 8.2-ci və 8.4-cü maddələrə "aşağıdakı sənədləri" sözlərindən sonra "kağız daşıyıcıda və ya elektron formada" sözləri əlavə edilsin;

7.2. 8.2.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.2.6-cı və 8.2.7-ci maddələr əlavə edilsin:

"8.2.6. lotereya təşkilatçısının təsisçiləri haqqında məlumat:

8.2.6.1. təsisçi fiziki şəxs olduqda, onun şəxsiyyətini təsdiq edən sənədin surəti və imzası notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilməklə vətəndaş qüsursuzluğuna dair ərizəsi;

8.2.6.2. təsisçi hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarış;

8.2.7. son maliyyə ili üzrə, bir ildən az müddətdə fəaliyyət göstərdikdə isə bütün fəaliyyət dövrü üzrə təsdiq edilmiş maliyyə hesabatları (lotereyanın ilk dəfə qeydiyyata alınması halı istisna olmaqla).".

7.3. 8.3-cü maddədə "8.2.4-cü və 8.2.5-ci" sözləri "8.2.4-8.2.6-cı" sözləri ilə əvəz edilsin və həmin maddəyə "maddələrində" sözündən sonra "(8.2.6-cı maddədə göstərilən məlumatlarda dəyişikliklər baş verdiyi hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

7.4. aşağıdakı məzmunda 8.4-1-ci maddə əlavə edilsin:

"8.4-1. Bu qanunun 8.4.4-cü və 8.4.5-ci maddələrində göstərilən sənədlərin surətinin (bu sənədlərdə baş vermiş dəyişikliklərin olması halları istisna olmaqla) eyni lotereya təşkilatçısı tərəfindən sonrakı stimullaşdırıcı lotereyaların keçirilməsi məqsədilə edilən müraciətlər zamanı təqdim edilməsi tələb olunmur.";

7.5. 8.9.3-cü maddəyə "təşkilatçısı" sözündən sonra "maliyyə bazarlarına nəzarət orqanının onunla bağlı qəbul etdiyi bu qanunla müəyyən olunmuş icrası məcburi göstərişləri icra etmədən" sözləri əlavə edilsin və həmin maddədən "onun tərəfindən keçirilən lotereyanın dayandırılması zamanı" sözləri çıxarılsın;

7.6. 8.10-cu maddə aşağıdakı redaksiyada verilsin:

"8.10. Lotereya təşkilatçısının lotereyanın şərtlərində dəyişikliklər edilməsi və ya qeydiyyata alınmasından imtina edilməsi barədə qərarından, habelə keçirilməsinin qadağan edilməsindən inzibati və məhkəmə qaydasında şikayət etmək hüququ vardır.".

8. Aşağıdakı məzmunda 8-2-ci maddə əlavə edilsin:

**"Maddə 8-2. Elektron lotereyaların təşkili və keçirilməsi**

8-2.1. Lotereya təşkilatçısı elektron lotereyaların təşkilini və keçirilməsini "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alınmış fərdi məlumatların informasiya sistemləri vasitəsilə həyata keçirir.

8-2.2. Bu qanunun 8-2.1-ci maddəsində nəzərdə tutulan fərdi məlumatların informasiya sistemlərində əks olunmalı məlumatların siyahısı maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.".

9. 10.1.7-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Lotereyanın təşkili və keçirilməsi ilə bağlı məlumatların maliyyə bazarlarına nəzarət orqanına təqdim olunması qaydası maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1299-VQD nömrəli Qanununun tətbiqi və "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 64 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1299-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası aşağıdakı normativ xarakterli aktları iki ay müddətində qəbul etsin:

2.1. "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2.4-cü maddəsinə uyğun olaraq, lotereyaların təşkili və keçirilməsi ilə bağlı nəzarətin həyata keçirilməsi qaydasını;

2.2. həmin qanunun 8-2.2-ci maddəsinə uyğun olaraq, elektron lotereyaların təşkili və keçirilməsi ilə bağlı fərdi məlumatların informasiya sistemlərində əks olunmalı məlumatların siyahısını;

2.3. həmin qanunun 10.1.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, lotereyanın təşkili və keçirilməsi ilə bağlı məlumatların maliyyə bazarlarına nəzarət orqanına təqdim olunması qaydasını.

3. "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 64 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 337; 2009, № 3, maddə 163; 2016, № 7, maddə 1253) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci maddədə "maddəsində" sözü "və 8-2.1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. həmin qanunun 8-2.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur.".

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 655; 2007, № 6, maddə 595; 2009, № 12, maddələr 948, 954, 968; 2011, № 2, maddə 71; 2014, № 10, maddə 1150; 2016, № 6, maddə 1013; 2017, № 5, maddə 713; 2018, № 4, maddə 641) aşağıdakı məzmunda 34.5-ci maddə əlavə edilsin:

"34.5. Bu qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12, I kitab, maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12, I kitab, maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 7, maddələr 1415, 1444, № 8, maddə 1675) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1-ci maddədə "4.1-1-ci maddəsində" sözləri "4.1-1-ci və 4.1-2-ci maddələrində" sözləri ilə əvəz edilsin.

2. 4.1-2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"4.1-2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan (qurum) tərəfindən göstərilən xidmətlərə (hüquqi hərəkətlərə) görə ödənilən dövlət rüsumlarının 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xəzinə hesabına köçürülür, qalan hissəsi isə dövlət büdcəsinə ödənilir.".

3. aşağıdakı məzmunda 4.1-3-cü maddə əlavə edilsin:

"4.1-3. Bu qanunun 4.1-ci, 4.1-1-ci və 4.1-2-ci maddələrində nəzərdə tutulan vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1345-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1345-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-2-ci maddəsinə uyğun olaraq, göstərilən xidmətlərə (hüquqi hərəkətlərə) görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ödənilən dövlət rüsumlarından toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 7 (I kitab), maddə 1489) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "4.1-ci," sözlərindən sonra "4.1-2-ci (hər üç halda), 4.1-3-cü" sözləri əlavə edilsin;

3.2. 2.1-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1-1. həmin qanunun 4.1-3-cü maddəsində "orqan (qurum)" dedikdə vəsaitlərin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə), Azərbaycan Respublikasının Nazirlər Kabineti (bu qanunun 4.1-ci maddəsində nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən dövlət orqanlarının, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin, habelə dövlət notariat kontorlarının və 4.1-2-ci maddəsində isə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin işçilərinə münasibətdə) və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (həmin Dövlət Agentliyinin və "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanlarının işçilərinə münasibətdə) həyata keçirirlər;";

3.3. aşağıdakı məzmunda 2.1-7-ci - 2.1-9-cu bəndlər əlavə edilsin:

"2.1-7. həmin qanunun 4.1-2-ci maddəsində "qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.1-8. həmin qanunun 4.1-2-ci maddəsində "orqanın işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, həmçinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin işçiləri nəzərdə tutulurlar;

2.1-9. həmin qanunun 4.1-2-ci maddəsində (üçüncü halda) "orqan" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1347-VQD nömrəli Qanununun tətbiqi və "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1347-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 34.5-ci maddəsinə uyğun olaraq, müvafiq pozuntulara görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılmaq üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə qaydasını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 667; 2007, № 6, maddə 613; 2010, № 3, maddə 186, № 5, maddə 402; 2014, № 11, maddə 1393; 2015, № 2, maddə 133; 2016, № 6, maddə 1041, № 12, maddə 2094; 2018, № 4, maddə 673) 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 34.5-ci maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 4.0.1-ci, 6.2-ci, 13.1-ci, 16.1-ci (ikinci halda), 16.2-ci, 16.4-cü, 19.2-ci (ikinci halda), 19.3-cü, 20.2-ci, 22.1-ci, 22.2-ci, 24.1-ci, 24.2-ci, 29.6-cı, 31.2-ci, 34.3.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, o cümlədən həmin qanunun 1.0.12-ci (fitosanitar sertifikatının nümunəvi formasının təsdiqi hissəsində), 7.1.6-cı, 28.1.2-ci, 28.1.3-cü, 28.1.8-ci, 28.1.10-cu maddələrində nəzərdə tutulmuş səlahiyyətləri Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin qanunun 23.3-cü, 25.1-ci, 25.2-ci və 33.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;

2.4. həmin qanunun 7.2-ci, 12.1.1-ci, 12.1.4-cü, 12.1.5-ci, 13.2-ci (hər iki halda), 13.5-ci, 13.6-cı maddələrində, 13.8-ci maddəsinin birinci cümləsində, 14.3-cü, 15.2-ci, 16.1-ci (birinci halda), 17.1.1-ci, 17.2-ci, 17.3-cü, 18.1-ci, 19.1-ci, 19.2-ci (birinci halda), 20.3-cü, 20.4-cü, 20.6-cı, 21.1-ci, 24.3-cü, 27.1.1-ci, 27.1.2-ci, 27.2.1-ci, 27.2.6-cı, 27.2.7-ci, 27.2.8-ci (hər iki halda), 28.3-cü, 29.7-ci, 30.5-ci, 32.1-ci, 32.3-cü və 34.2.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir;

2.5. həmin qanunun 34.5-ci maddəsində "qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.6. həmin qanunun 34.5-ci maddəsinin ikinci cümləsində "orqan" dedikdə vəsaitlərin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;

2.7. həmin qanunun 34.5-ci maddəsinin birinci cümləsində "orqanın işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, həmçinin Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçiləri nəzərdə tutulurlar;

2.8. həmin qanunun 34.5-ci maddəsinin birinci cümləsində (üçüncü halda) "orqan" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438) aşağıdakı dəyişikliklər edilsin:

1. 41-ci maddəyə “189.4,” rəqəmlərindən sonra “212.3,” rəqəmləri əlavə edilsin.

2. 212-ci maddə üzrə:

2.1. 212.1-ci maddədə “və tütün məmulatı” sözləri “məmulatlarının istifadəsinin məhdudlaşdırılması” sözləri ilə, “siqaret” sözü “tütün” sözü ilə əvəz edilsin;

2.2. 212.2-ci maddədə hər iki halda “siqaret” sözü “tütün” sözü ilə, “yerlərin ayrılmasının” sözləri “ayrılmış yerlərin sanitar-gigiyenik normalara və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən şəkildə təchizinin” sözləri ilə əvəz edilsin və həmin maddədən “xəbərdarlıq” sözü çıxarılsın;

2.3. aşağıdakı məzmunda 212.3-cü, 212.4-cü və 212.5-ci maddələr əlavə edilsin:

“212.3. Yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsi -

yüz manat məbləğində cərimə edilir.

212.4. Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə -

əlli manat məbləğində cərimə edilir.

212.5. “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinin qarşısının alınmamasına görə -

vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.”.

3. 299-cu maddənin adında və dispozisiyasında “müəyyən edilməmiş yerlərdə siqaret” sözləri “tütün” sözü ilə əvəz edilsin.

4. 305 və 318-ci maddələrin adında və dispozisiyasında, 306.4-cü maddədə “siqaret” sözü “tütün” sözü ilə əvəz edilsin.

5. 322.0.4-cü maddədə “siqaret” sözü “, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində və taksi minik avtomobilində tütün” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

# “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1326-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1326-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 212.4-cü və 212.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxan müvafiq icra hakimiyyəti orqanı barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddə 1697; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 331 nömrəli Fərmanı) 4.3-cü bəndinə “154.1-ci maddəsinin ikinci cümləsində,” sözlərindən sonra “212.2,” rəqəmləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 6, maddə 481, № 8, maddələr 694, 710; 2009, № 6, maddə 399, № 11, maddə 878; 2010, № 3, maddə 171, № 4, maddə 273, № 11, maddə 944; 2011, № 2, maddələr 71, 72; 2012, № 11, maddə 1040; 2015, № 10, maddə 1089; 2016, № 6, maddə 984; 2017, № 5, maddə 729, № 7, maddə 1252; 2018, № 3, maddə 398) 2.2-ci maddəsinə “qulluğa qəbul” sözlərindən sonra “və qulluq keçmə” sözləri və “müddəaları” sözündən sonra “, həmçinin həmin qanunun 15-1-ci maddəsi” sözləri əlavə edilsin.

**Maddə 2.** “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2 (I kitab), maddə 193, № 6, maddələr 982, 1018; 2017, № 12 (I kitab), maddə 2243; 2018, № 3, maddə 397) 2.2-ci maddəsinə “müddəaları” sözündən sonra “, həmçinin həmin qanunun 15-1-ci maddəsi” sözləri əlavə edilsin.

**Maddə 3.** “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 714; 2015, № 2, maddə 103, № 10, maddə 1088; 2016, № 2 (I kitab), maddə 191, № 6, maddə 986; 2017, № 7, maddə 1254; 2018, № 3, maddə 390) 7.1-ci maddəsinə aşağıdakı məzmunda birinci cümlə əlavə edilsin:

“Fövqəladə hallar orqanları əməkdaşının şəxsi işi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsi nəzərə alınmaqla tərtib edilir və aparılır.”.

**Maddə 4.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438) aşağıdakı məzmunda 600-1-ci maddə əlavə edilsin:

**“Maddə 600-1. Şəxsi işlərin aparılması qaydalarının pozulması**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş şəxsi işin aparılması qaydalarının tələblərinin kadr qurumlarının vəzifəli şəxsləri tərəfindən pozulmasına görə -

dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 8; 2001, № 12, maddə 736; 2003, № 1, maddə 7; 2004, № 1, maddə 6; 2007, № 6, maddə 560; 2009, № 2, maddələr 49, 55; 2011, № 4, maddə 257; 2013, № 11, maddə 1290; 2014, № 11, maddə 1365; 2015, № 11, maddə 1252; 2017, № 5, maddələr 718, 747; 2018, № 4, maddə 642) 8-ci maddəsinə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

“Bu qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1348-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar bir sıra tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1348-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin beşinci hissəsinə uyğun olaraq, müvafiq pozuntulara görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılmaq üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə qaydasını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin beşinci hissəsinin birinci (hər üç halda) və ikinci cümlələrində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 8-ci maddəsinin beşinci hissəsində “qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan” dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.3. həmin qanunun 8-ci maddəsinin beşinci hissəsinin ikinci cümləsində “orqan” dedikdə vəsaitlərin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitlərdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;

2.4. həmin qanunun 8-ci maddəsinin beşinci hissəsinin birinci cümləsində “orqanın işçiləri” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, həmçinin Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçiləri nəzərdə tutulurlar;

2.5. həmin qanunun 8-ci maddəsinin beşinci hissəsinin birinci cümləsində (üçüncü halda) “orqan” dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. “Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1358 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 762, № 11, maddə 2023, № 12 (I kitab), maddə 2343; 2018, № 6, maddə 1235, № 9, maddə 1842) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.10.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.11-ci və 2.12-ci bəndlər əlavə edilsin:

“2.11. “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun 39.4-cü maddəsinə, “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 34.5-ci maddəsinə və “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin beşinci hissəsinə uyğun olaraq, müvafiq pozuntulara görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılmaq üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan vəsaitin 50 faizi aşağıdakı kimi bölüşdürülür:

2.11.1. 5 faiz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının hesabına köçürülür;

2.11.2. 45 faiz Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə həmin agentliyin hesabına köçürülür;

2.12. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-2-ci maddəsinə əsasən həmin qanunla nəzərdə tutulan xidmətlərə (hüquqi hərəkətlərə) görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə ödənilən dövlət rüsumunun 50 faizi aşağıdakı kimi bölüşdürülür:

2.12.1. 5 faiz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının hesabına köçürülür;

2.12.2. 45 faiz Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə həmin agentliyin hesabına köçürülür;”;

4.2. həmin fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hesabına köçürülən vəsaitdən istifadə Qaydası” üzrə:

4.2.1. 1.5-ci bənddə “2.1.10-cu” sözləri “2.1.12-ci” sözləri ilə əvəz edilsin;

4.2.2. 2.1.10-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.11-ci və 2.1.12-ci yarımbəndlər əlavə edilsin:

“2.1.11. “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun 39.4-cü maddəsinə, “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 34.5-ci maddəsinə və “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin beşinci hissəsinə uyğun olaraq, müvafiq pozuntulara görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələr (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılmaq üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələr);

2.1.12. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-2-ci maddəsinə əsasən həmin qanunla nəzərdə tutulan xidmətlərə (hüquqi hərəkətlərə) görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə ödənilən dövlət rüsumu.”;

4.3. həmin qaydaya əlavənin “qanunda nəzərdə tutulmuş mənbələr hesabına formalaşan və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xüsusi xəzinə hesabına köçürülən vəsait barədə məlumat” cədvəlinə aşağıdakı məzmunda 11-ci və 12-ci hissələr əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 11. | “Baytarlıq haqqında” Azərbaycan Respublikası Qanununun 39.4-cü maddəsinə, “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 34.5-ci maddəsinə və “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin beşinci hissəsinə uyğun olaraq, müvafiq pozuntulara görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələr (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılmaq üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələr) | | | | |
| 12. | “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-2-ci maddəsinə əsasən həmin qanunla nəzərdə tutulan xidmətlərə (hüquqi hərəkətlərə) görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə ödənilən dövlət rüsumu | | | | |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*

# “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1317-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1317-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2018-ci il*



# Mədəni dəyərlərə sadiqlik örnəyi

Əvvəli 1-ci səh.

Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə ilk növbədə xalqın zəngin milli-mənəvi irsini, tarixini, maddi mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu şərtləndirən dəyərləri qorumağa çalışmışdır. Ulu öndərin rəhbərliyinin bütün fəlsəfəsi yalnız xalqın milli dirçəlişi, qürur hislərinin oyanışı məqamına, mədəniyyət abidələrinin tərbiyəvi roluna hesablanmışdır.

* * *

Bakının qoynunda, möhtəşəm qala divarları əhatəsində yerləşən, açıq səma altında bir muzey kimi fəaliyyət göstərən İçərişəhər qədim və orta əsrlər dövrünə aid zəngin maddi mədəniyyət abidələrini əsrlərdən bəri qoruyub saxlayır. Onun ərazisinin hər qarışında, abidələrinin hər daşında xalqımızın canlı tarixi həkk olunmuşdur. Azərbaycan xalqının daş yaddaşı olan İçərişəhər və onun ərazisindəki Qız qalası, Qala divarları, Şirvanşahlar Saray Kompleksi, məscidlər, karvansaralar, hamamlar və digər memarlıq abidələri öz orijinallığı və təkrarolunmaz gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur.

Bu gün İçərişəhər ictimaiyyətin diqqətini daha çox cəlb edir. Azərbaycan müstəqillik qazandıqdan sonra milli-mənəvi dəyərlərimizin, tarixi abidələrimizin qorunmasına qayğı daha da artırılmışdır. İçərişəhərin mühafizəsi, bərpası ilə bağlı daha ciddi tədbirlər həyata keçirilməyə başlanmışdır. Lakin bəlkə də bir çoxları bilmir ki, bu diqqətin tarixçəsi ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Hələ o zaman ulu öndər Heydər Əliyev mədəni irsin qorunub saxlanmasına, bərpasına, təbliğinə böyük önəm verirdi. Müdrik dövlət başçısı milli şüurun formalaşmasında, mənəvi dəyərlərin aşılanmasında, vətənpərvər nəsillərin yetişdirilməsində tarixi keçmişin, maddi-mədəniyyət abidələrinin tərbiyəvi rolunu yüksək qiymətləndirir və vacib amil hesab edirdi.

Ötən əsrin 60-cı illərinin sonunda Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ictimai-siyasi, ədəbi-mədəni həyatda qeyri-adi canlanma yaratdı. Məhz onun göstərişi və təşəbbüsü ilə 1977-ci ildə İçərişəhər ilk dəfə Azərbaycanın tarix-memarlıq qoruğu elan olundu.

1970-1980-ci illərdə respublikada bu istiqamətdə böyük, sistemli işlər aparılmağa başlandı. Tarixi abidələrdə məqsədli surətdə diyarşünaslıq muzeyləri, rəssamlıq sərgiləri, kitabxanalar yerləşdirilirdi. Məhz o dövrdə İçərişəhər, Ordubadın, Şuşanın tarixi hissələri tarix-memarlıq qoruqları elan olundu, İsmayıllının Lahıc kəndi, Qəbələnin qədim şəhər yeri tarix-mədəniyyət qoruqlarına çevrildi. Əsas istiqamət olaraq tarixi qoruqların maddi bazasının möhkəmləndirilməsi və bərpa işlərinin genişləndirilməsi seçilmişdi.

Bunlardan biri 1981-ci ildə "İçərişəhər Tarix-Memarlıq Qoruğunun bərpası və regenerasiyası işlərinin sürətləndirilməsi tədbirləri haqqında" qərar layihəsi idi. Layihənin meydana gəlməsinin əsas səbəblərindən biri də burada yerləşən memarlıq abidələrinin bərpası, layihələndirilməsi işlərinin aidiyyəti təşkilatlar tərəfindən ləng aparılması, arxeoloji tədqiqatların kifayət qədər təşkil olunmaması, bərpa və regenerasiya işlərinin lazımi səviyyədə və miqyasda həyata keçirilməməsi idi.

Sənəddə Bakı Şəhər İcraiyyə Komitəsi yanında İçərişəhərin layihələndirilməsi, bərpası və regenerasiyası işlərinin aparılması üçün elmi-layihə təşkilatının yaradılması nəzərdə tutulurdu. Bərpa işlərinin İçərişəhər ərazisində aparılması üçün İxtisaslaşdırılmış Təmir-Bərpa Trestinin yaradılması da sənəddə xüsusi qeyd olunmuşdu. Burada İçərişəhərin bərpası və abadlaşdırılması üzrə Müdiriyyətin Bakı Şəhər İcraiyyə Komitəsi yanında İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi, bərpası və istifadəsinə nəzarət edən Baş İdarə ilə əvəz edilməsi qərara alınmışdı. Hətta idarənin əsasnaməsi, qarşısında qoyulan vəzifələr, ştat cədvəli də işlənib hazırlanmışdı.

İdarənin qarşısında İçərişəhəri Azərbaycanın orta əsr şəhərsalma nümunəsi kimi onun memarlıq quruluşunun xüsusiyyətləri, təbii landşaftı ilə qoruyub saxlamaq, habelə burada xüsusi rejimdə bərpa və regenerasiya işlərinin aparılmasını təşkil etmək vəzifəsi qoyulurdu. Həmin işlərin yerinə yetirilməsi dörd əsas şöbə - inzibati-rəhbərlik personalı, abidələrin və tarixi tikililərin mühafizəsi üzrə inspeksiya, qeydiyyat, tədqiqat və araşdırma şöbəsi və istehsalat-texniki şöbə ilə texniki nəzarət üzrə inspeksiyası tərəfindən aparılırdı.

Elmi-layihə təşkilatına 85 ştat vahidi ayrılmışdı. Burada əsas ştatlar tarixçilər və memarlar üçün nəzərdə tutulurdu. Təmir-Bərpa Trestində isə 49 ştat vahidi mövcud idi.

Bunun ardınca mədəni irsin qorunması və gələcək nəsillərə çatdırılması məqsədilə 15 sentyabr 1981-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeoloji abidələrin mühafizəsi, bərpası və istifadəsi tədbirlərinin yaxşılaşdırılması haqqında" qərar imzalandı.

Qərarda mədəni irsin qorunması, bərpası işində görülən tədbirlərlə yanaşı, yol verilən nöqsanlar da xüsusi qeyd olunmuşdu və onların aradan qaldırılması yolları da müəyyənləşdirilmişdi. Qeyd olunurdu ki, abidələrin bərpasına qoyulan vəsait 1976-1980-ci illərdə, yəni 4 il ərzində üç dəfə artmış və 2 milyon manat təşkil etmişdi. Eyni zamanda İçərişəhərin regenerasiya planı hələ də hazırlanmamışdı. 44 mühüm memarlıq abidəsindən yalnız dördü bərpa olunmuşdu. Azərbaycan EA-nın Tarix İnstitutunun arxeoloji ekspedisiyasının ərazidə apardığı tədqiqatlar epizodik xarakter daşımış, qazıntı əraziləri bir müddətdən sonra yenidən örtülmüş, bir çox hallarda aşkar olunmuş maddi-mədəniyyət nümunələri fiksasiya olunmuş, itib-batmışdır. Bakı Şəhər İcraiyyə Komitəsi nəzdində yaradılan İçərişəhərin bərpa və abadlıq işləri üzrə müdiriyyətin fəaliyyəti qənaətbəxş deyildi, ştat vahidi az və tam komplektləşdirilməmişdi.

Mədəniyyət Nazirliyi, Elmlər Akademiyası, Dövlət Tikinti Komitəsi, nazirliklər və baş idarələr mövcud olan qanunların tələblərini yerinə yetirmək üçün kifayət qədər tədbirlər görmür, abidələrin mühafizəsinə, bərpasına və onlardan istifadə edilməsinə az fikir verirdi.

Ulu öndər Heydər Əliyevin birbaşa göstərişi ilə bütün partiya təşkilatlarına, icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırılmışdı ki, tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası məsələlərinə diqqəti gücləndirsinlər, ictimaiyyəti, müəssisə, idarə, sovxoz, kolxoz və məktəblərin kollektivlərini bu işə daha geniş cəlb etsinlər. Tikinti, torpaq və kənd təsərrüfatı işləri görülərkən tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqındakı qanunlara müəssisə, təşkilat və idarələr tərəfindən əməl olunsun. Nazirlər Soveti yanında Şəhərsalma, Memarlıq və Arxeoloji abidələrin mühafizəsi, bərpası və onlardan istifadə üzrə Baş İdarə yaratmaq və şəhərsalma, memarlıq və arxeoloji abidələrin aşkara çıxarılmasını, mühafizəsini, sistemləşdirilməsini, bərpasını və onlardan istifadə olunmasını həmin idarəyə tapşırmaq qərara alınmışdı. Mədəniyyət Nazirliyinin Tarix və mədəniyyət abidələrinin mühafizəsi üzrə Baş inspeksiyası Tarix və incəsənət abidələrinin mühafizəsi və onlardan istifadə üzrə Baş İnspeksiya adlandırıldı. Mədəniyyət Nazirliyində Tarix və incəsənət abidələrinin bərpası üzrə elmi-bərpa emalatxanası yaradıldı.

Ümummilli lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunması bu tədbirlərin həyata keçirilməsini bir qədər ləngitdi.

Bu istiqamətdə aparılan işlər kifayət qədər qənaətbəxş olmadığı üçün Azərbaycan KP Mərkəzi Komitəsi və Nazirlər Soveti 23 mart 1984-cü ildə yenidən bu məsələyə diqqəti yönəltdi və "Bakı şəhərində yerləşən "İçərişəhər" kompleksinin qorunması, bərpası və istifadəsi tədbirlərinin yaxşılaşdırılması" haqqında yeni qərar qəbul edildi. Qərarda Bakı Şəhər İcraiyyə Komitəsindən, Mədəniyyət Nazirliyindən, Elmlər Akademiyasından tələb olunurdu ki, İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi, bərpası və regenerasiyası işlərinin təşkili və texniki səviyyəsinin yüksəldilməsi istiqamətində ciddi tədbirlər görülsün.

Qərarda İçərişəhərdə mərkəzləşdirilmiş mühəndis kommunikasiya sisteminin yaradılması; əhalinin bir qisminin köçürülməsi; ərazidə maşınların gedişinin məhdudlaşdırılması; mədəni-iaşə obyektlərinin, yaradıcılıq birliklərinin, suvenir istehsal edən kiçik emalatxanaların; görkəmli rəssam, heykəltəraşların yaradıcılıq emalatxanalarının yerləşdirilməsi məqsədəuyğun hesab olunurdu.

Bakı Şəhər İcraiyyə Komitəsinə Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutu ilə birgə İçərişəhərin bərpası, regenerasiyası, rekonstruksiyasının Baş Planının işlənməsi və 1984-cü ilin sonuna kimi Nazirlər Kabinetinə təqdim edilməsi tövsiyə olundu. Memarlıq abidələrinin bərpası işinin yaradılacaq "Bərpaçı" Elm-İstehsalat Birliyinə tapşırılması nəzərdə tutulurdu.

Beləliklə, 1970-1980-ci illərdə İçərişəhər Tarix-Memarlıq Qoruğu ilə bağlı qəbul olunmuş qərarlar ümummilli liderin bu istiqamətdə apardığı işlərin yüksək dövlət səviyyəsində təşkilinin bariz nümunəsi idi. Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mədəni irsinin İçərişəhərin timsalında dünya ictimaiyyətinə çatdırılmasında ümummilli liderin böyük rolu danılmazdır. Bu fəaliyyət mədəni irsə münasibətdə dövlət strategiyasının formalaşması baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

1988-ci ildən ölkə həyatında baş verən siyasi hadisələr bu tarix-memarlıq abidəsini, bir növ, unutdurmuşdu.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycana qayıdışı 1970-1980-ci illərdə təməli qoyulmuş bir çox işlərin, o cümlədən mədəni irsin qorunması, tədqiqi və təbliği işinin canlanmasına səbəb oldu.

O dövrün sənədlərində İçərişəhərə xüsusi yer ayrılırdı. Əsas məqsəd əsrlərlə formalaşan tarixi məkanın bir qədim şəhərsalma nümunəsi olaraq qorunub saxlanması və olduğu kimi gələcək nəsillərə çatdırılması idi. Bununla belə, müasir yaşayış məskəni kimi qalması məqsədilə burada yaşayan insanlar üçün şərait yaradılmasına xüsusi diqqət yetirilirdi. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə mədəniyyət abidələrinin mühafizəsi və bərpası üçün hüquqi normativ aktlar bazası yaradıldı. "Mədəniyyət haqqında" (16 aprel 1998), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (13 iyun 1998) qanunlar qəbul edildi.

Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə əsasən Bakıda Şirvanşahlar Saray Kompleksində, Naxçıvanda Möminə Xatun və Qarabağlar türbələrində, Şəki xanlarının sarayında bərpa və konservasiya işləri aparılmışdır. 2000-ci ildə İçərişəhərin UNESCO-nun Dünya Mədəni İrs Siyahısına salınması bu istiqamətdə aparılan gərgin zəhmətin nəticəsi idi. 2002-ci ildə respublikamız Abidələrin bərpası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv seçilmişdir.

Buna baxmayaraq, şəhər-muzeyin tarixi görkəminə xələl gətirən tikinti işləri davam etdirilirdi. İçərişəhər 2003-cü ildə 21 ölkənin nümayəndələrindən ibarət Dünya İrs Komitəsinin qərarı ilə məhv olmaq təhlükəsi olan abidələrin Ümumdünya İrs Siyahısına daxil edilmişdir. O vaxt bu qərarın qəbul olunmasına 2000-ci il noyabrın 25-də Bakı şəhərində baş vermiş güclü zəlzələnin törətdiyi nəticələr, İçərişəhərdə vahid idarəetmə sisteminin və lazımi nəzarətin olmamasından irəli gələn və memarlıq abidələri üçün təhlükə yaradan qeyri-qanuni tikinti işləri, həmçinin İçərişəhərin qorunması və inkişaf planının qeyri-mövcudluğu səbəb olmuşdu. Bununla bağlı komitə Azərbaycan hökumətinə görülməli olan tədbirlərə dair öz tövsiyələrini təqdim etmişdir.

Sözügedən mənfi halların qarşısının alınması məqsədilə ümummilli lider Heydər Əliyev 2003-cü il fevralın 17-də "Bakı şəhərində İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi və bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Sərəncamda göstərilmişdir ki, "Bakı Şəhər İcra Hakimiyyəti İçərişəhərin uzunmüddətli qorunması, konservasiyası və bərpasına dair sənəd qəbul edilənə qədər onun ərazisində, bərpa işləri istisna olmaqla, aparılan bütün tikinti işlərinin dayandırılmasını təmin etsin".

Ümummilli lider Heydər Əliyevin ideyaları onun layiqli davamçısı İlham Əliyevin bu istiqamətdə apardığı işlərdə öz əksini tapmışdır. Prezident İlham Əliyev 2005-ci il fevralın 10-da "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında" sərəncam imzaladı. Sərəncama əsasən, qoruğun ikili tabeliyi ləğv edilir, İçərişəhərin qorunması, bərpa edilməsi prosesində yaxşılığa doğru dönüş yaratmağın yolları göstərilirdi. Elə həmin il fevralın 28-i və noyabrın 22-də müvafiq olaraq qoruq və idarənin əsasnamələrinin təsdiqi ilə bağlı sərəncamlar verildi.

2006-cı il avqustun 18-də Prezident İlham Əliyev Bakı şəhərində tarix-memarlıq abidələrinin bərpası və qorunması haqqında yeni sərəncam imzaladı. Bu sərəncam İçərişəhərin də qorunması və bərpası ilə bağlı çox vacib məsələləri qarşıya qoymuşdur. Son illər bu istiqamətdə işlər uğurla davam etdirilmişdir. İçərişəhərdə unikal vahid idarəetmə sistemi yaradılmışdır. İdarənin yeni əsasnaməsi hazırlanmış və 2007-ci ilin 16 may tarixində təsdiq olunmuşdur. Bu sərəncamda da idarənin strukturu, işçilərin say həddi, idarənin tabeliyində olan qurumların dövlət büdcəsi vəsaiti hesabına, həmçinin özünümaliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərməsi öz əksini tapmışdır.

İdarənin fəaliyyəti, İçərişəhərdə şəhərsalma konsepsiyasının - master-planın işlənib hazırlanması 25 iyun 2009-cu ildə İçərişəhərin UNESCO-nun "qara siyahı"-sından çıxarılması ilə nəticələndi. Master-planı faktiki olaraq İçərişəhərin konservasiyasının və inkişafının baş planı adlandırmaq olar. Sənəddə İçərişəhərdə olan hər tikili tədqiq edilmiş, onun yaranma tarixi dəqiqləşdirilmiş, istifadəsinin funksionallığı, mövcud vəziyyəti və əhəmiyyəti araşdırılıb, bərpasının vaciblik dərəcəsi müəyyən edilmişdir. Bu gün İçərişəhərdə aparılan bərpa və konservasiya işləri master-plana uyğun aparılır.

Dövlət başçısının tapşırığı ilə İçərişəhərin ərazisində yüksək peşəkarlıqla və gözəl memarlıq üslubunda aparılan təmir-bərpa və abadlıq işləri təbii və insan faktorlarının təsiri nəticəsində acınacaqlı vəziyyətə düşmüş bina və abidələrə ikinci həyat bəxş etmiş, İçərişəhərin tarixi mənzərəsinin bərpasına öz töhfəsini vermişdir.

Bu gün qarşımızda duran başlıca vəzifə İçərişəhərin dünya miqyasında tanıdılması, onun tarixi memarlığının, milli etnomühitinin bərpa edilməsi, dünya şöhrətli bir məkana çevrilməsi və Azərbaycan xalqının zəngin tarixinin ən gözəl və canlı bir sübutu kimi həm regionda, həm də dünyada tanıdılmasıdır.

Müasir Azərbaycan dövlətinin memarı, azərbaycançılıq konsepsiyasının banisi Heydər Əliyevin tarixi xidmətlərini gələcək nəsillər minnətdarlıqla xatırlayacaq.

***Kamil İBRAHİMOV, professor***

# Əbədi ehtiram nümunəsi



Hər il olduğu kimi, ümummilli liderimiz Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar Səbail rayonunda silsilə tədbirlər keçirilir, idarə, müəssisə və təşkilatlarda, təhsil və səhiyyə müəssisələrində ulu öndərin əziz xatirəsi dərin hörmət və ehtiramla anılır.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalovun, rayonun idarə və təşkilat, ali və orta təhsil müəssisələrinin, veteran və gənclər təşkilatlarının, din xadimlərinin, rayon ictimaiyyətinin nümayəndələrinin, Milli Məclis deputatlarının, elm və mədəniyyət xadimlərinin iştirakı ilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Sönməzdir, əbədidir Heydər Əliyev!" adlı anım mərasimi keçirilmişdir.

Səhnədəki monitorda ulu öndər Heydər Əliyevin portreti canlandırılmışdır. Azərbaycan Respublikasının xalq artisti Rauf Abdullayevin bədii rəhbəri və baş dirijoru olduğu Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin ifasında Qara Qarayevin "Matəm odası" səsləndi. Orkestrin ifası zamanı ekranda ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş videofraqmentlər nümayiş etdirildi.

Tədbirdə qeyd olunmuşdur ki, 15 il əvvəl dekabr ayında müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyev əbədiyyətə qovuşdu. O, xalqımızın yaddaşına əbədi həkk olunmuş dahi şəxsiyyətdir.

Çox illər keçəcək, lakin çiçəklənən Azərbaycanın vətəndaşları müdrikliyi və sarsılmaz mətinliyi sayəsində Azərbaycanın gələcəyini təmin etmiş bu dahi insanı unutmayacaqlar. Əsası Heydər Əliyevin yorulmaz əməyi ilə qoyulmuş bu dayanıqlı inkişaf ölkə rəhbəri İlham Əliyevin sayəsində davam edir. Bu siyasəti son 15 ildə davam etdirən Prezident İlham Əliyev milli ənənələri və geosiyasi özəllikləri nəzərə alaraq ölkəni iqtisadi yetkinlikdən demokratik yetkinlik məkanına bacarıqla transformasiya edir.

XX əsrin 90-cı illərində Azərbaycanın keçdiyi çətin, lakin şərəfli yol yalnız Heydər Əliyevin fəaliyyəti sayəsində tarixi həqiqətə çevrildiyi kimi, XXI əsrin əvvəllərinin möhtəşəm uğurları da Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin yeritdiyi siyasətin parlaq təzahürüdür.

Tədbir Soltan Hacıbəyovun "Karvan" simfonik lövhələri ilə davam etdi və Heydər Əliyevin gənclik illəri, ölkə rəhbəri kimi çalışdığı dövr, onun ölkənin inkişafı və tərəqqisi üçün gördüyü işləri əks etdirən video-fotolar nümayiş olundu.

Anım gecəsi Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" ilə bitmişdir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Etibar NƏCƏFOV: "Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir ölkələrdəndir"





Etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi həyata keçirilmədikdə və ya düzgün aparılmadıqda cəmiyyətin inkişafının ayrı-ayrı sahələrində ciddi problemlər, hətta münaqişələr yaranır. Bu səbəbdən etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi çoxmədəniyyətli dövlət üçün böyük praktiki əhəmiyyət kəsb edir. Müasir dövrdə multikulturalizm siyasəti bir sıra Qərb ölkələrində iflasa uğrayarkən Azərbaycan Respublikası bu siyasət vasitəsilə cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi sahəsində böyük nailiyyətlər qazanıb. Buna misal kimi ölkəmizdə etnik, dini və irqi zəmində heç bir qarşıdurmanın, münaqişənin olmamasını göstərmək olar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər dekabrın 13-də Quba şəhərində "Müasir dövrdə Azərbaycan Respublikasında etnosiyasi və dini durum" mövzusunda keçirilən zona müşavirəsində səsləndirilib.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon icra hakimiyyəti başçılarının müavinləri - dini işlər üzrə komissiya sədrləri, dini qurumlarla işin təşkilatçıları, hüquq mühafizə orqanlarının, Mədəniyyət, Təhsil, Gənclər və İdman nazirliklərinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerli qurumlarının rəhbərləri, bələdiyyə sədrləri, ziyalılar və din xadimləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Quba şəhərinin mərkəzi meydanındakı abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Heydər Əliyev Mərkəzində keçirilən zona müşavirəsində Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev çıxış edərək tədbirin əhəmiyyətindən danışıb, rayondakı dini durum haqqında məlumat verib.

Bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd dövlətimizin multikulturalizm və dövlət-din münasibətləri sahəsində əldə etdiyi nailiyyətləri bölgə ictimaiyyətinin diqqətinə çatdırmaq, həmçinin bölgədə etnosiyasi və dini durumla bağlı mövcud vəziyyəti yerində öyrənmək, sözügedən sahədə dövlət qurumları arasında koordinasiyanı gücləndirmək, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin, eyni zamanda, Prezident Administrasiyasında təsdiq edilmiş fəaliyyət planlarının icra vəziyyəti ilə tanış olmaqdır.

Müşavirədə məruzə ilə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, Azərbaycanda etnik-mədəni müxtəliflikər əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi multikulturalizm siyasəti vasitəsilə tənzimlənir. Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir ölkələrdəndir. Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi, assimilyasiya siyasətindən fərqli olaraq, milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla bu dəyərləri qorumağa çalışır. Həmçinin izolyasiya siyasətindən fərqli olaraq, milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır. Eləcə də milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiyası üçün əlverişli imkan təklif edir.

Diqqətə çatdırılıb ki, tarixən Azərbaycanda məskunlaşmış milli azlıqlar etnik, dini və mədəni mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə burada əhalinin çoxluğunu təşkil edən Azərbaycan türkləri tərəfindən təqib olunmayıb və birgə əmin-amanlıq şəraitində yaşayıblar. Azərbaycanda multikultural mühit ölkənin müstəqil olduğu zamanda daha da güclənib.

Etibar Nəcəfov məruzəsində qeyd edib ki, ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunmasıdır. Bu istiqamətdə ölkəmiz böyük uğurlara imza atıb. Belə uğurlardan biri kimi son dövrdə siyasi leksikona daxil olmuş "Bakı prosesi"ni qeyd etmək olar. Bu il on illiyini qeyd etdiyimiz və qlobal hərəkata çevrilmiş "Bakı prosesi" müxtəlif mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan təşəbbüsdür. Prezident İlham Əliyev tərəfindən ilk dəfə irəli sürülən və Azərbaycan multikulturalizminin beynəlxalq münasibətlər sistemində təzahürü olan bu təşəbbüs çərçivəsində ölkəmizdə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına xidmət edən bir sıra nüfuzlu beynəlxalq tədbirlər keçirilib. "Bakı prosesi" çərçivəsində paytaxtımızda Dünya Mədəniyyətlərarası Dialoq forumları, Bakı Beynəlxalq Humanitar forumları, Dünya Dini Liderlərinin Sammiti, eləcə də Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu təşkil olunub.

"Unutmaq olmaz ki, din ideoloji sahədə ən həssas və incə mahiyyətə sahibdir. Ondan siyasi, qrup, şəxsi maraqlar naminə istifadə edən, yaxud din pərdəsi altında müxtəlif destruktiv fəaliyyətlərə yönələn və bunun nəticəsində digər vətəndaşların hüquqlarını pozan, bir sözlə, insanların saf duyğularından istifadə edib öz məkrli məqsədlərini həyata keçirmək istəyənlər də az deyil" deyə Etibar Nəcəfov bildirib.

Müşavirədə digər çıxış edənlər qeyd ediblər ki, Azərbaycanda dövlət-din münasibətləri möhkəm təməllər üzərində qurulub. Ölkəmizdə dindarlara daim dövlət tərəfindən diqqət və qayğı göstərilir. Görülən bu işləri dindarlar yüksək qiymətləndirir, Azərbaycan hökumətinin həyata keçirdiyi tolerant və multikultural siyasəti dəstəkləyirlər.

Vurğulanıb ki, Azərbaycan Respublikasında dini etiqad azadlığı möhkəm hüquqi normativ əsaslara malikdir. Eyni zamanda, dövlətimiz dini etiqad azadlığının təmin olunması sahəsində böyük işlər görür. Lakin radikal ekstremist qruplaşmalar öz çirkin əməlləri ilə buna kölgə salmağa çalışır, həmçinin ölkədəki ictimai-siyasi sabitliyi pozmağa cəhdlər edirlər. Belə cəhdlərin qarşısı həmişə qətiyyətlə alınıb və gələcəkdə də alınacaqdır.

Müşavirədə dövlət-din münasibətləri istiqamətində görülən işlərdən danışılıb, Azərbaycanda mövcud olan etnosiyasi və dini durumun dünyaya nümunə olduğu bildirilib.

## Azərbaycan ilə NATO arasında hərbi təhsil sahəsində əməkdaşlığın gücləndirilməsinə dair fikir mübadiləsi aparılıb

Dekabrın 13-də müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO Müdafiə Kollecinin rəisi general-leytenant Kris Uaytkross ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir regiondakı hərbi-siyasi vəziyyət, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qonağa məlumat verib. General-polkovnik Z.Həsənov Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlıq proqramları, xüsusilə hərbi təhsil sahəsində fəaliyyətlərin vacibliyini vurğulayaraq bu istiqamətdə göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

General-leytenant K.Uaytkross Müdafiə Kollecinin fəaliyyəti barədə ətraflı məlumat verərək Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. O, göstərilən qonaqpərvərliyə, müxtəlif qurumlarda görüşlərin təşkilinə görə bütün heyət üzvləri adından minnətdarlığını bildirib.

Qonaq Müdafiə Kollecinin təşkil etdiyi kursların vacibliyini vurğulayaraq bu cür səfərlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

## Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

## Bakıda Qazaxıstanın milli bayramı qeyd edilib

Dekabrın 13-də Qazaxıstanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Müstəqillik Gününün 27-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.




AZƏRTAC xəbər verir ki, qəbulda Azərbaycanın dövlət və hökumət rəsmiləri, deputatlar, xarici ölkələrin səfirləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayev çıxış edərək ötən müddətdə ölkəsinin keçdiyi inkişaf yolundan danışıb. Diplomat vurğulayıb ki, əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən qoyulmuş dostluq və qardaşlıq münasibətlərini bu gün dövlətlərimizin başçıları uğurla davam etdirirlər. Azərbaycanı və Qazaxıstanı çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələri birləşdirir. Ölkələrimiz arasında siyasi, iqtisadi, təhsil və digər sahələrdə əməkdaşlıq mövcuddur.

Səfir əmin olduğunu bildirib ki, qarşılıqlı səylərimiz bundan sonra da münasibətlərin daha da inkişaf etdirilməsinə yönəldiləcək. Diplomat əlavə edib ki, Qazaxıstan Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Dağlıq Qarabağ münaqişəsində Azərbaycana daim dəstək verir.

Energetika naziri Pərviz Şahbazov milli bayram münasibətilə Qazaxıstan xalqını Azərbaycan hökuməti adından təbrik edib. Nazir bildirib ki, Azərbaycan ilə Qazaxıstan arasında həmişə səmimi dostluq münasibətləri olub və bu əlaqələr ölkələrimizin müstəqilliklərini bərpa etdikdən sonra intensiv inkişaf etməyə başlayıb. İki ölkə arasında həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlər və imzalanmış çoxsaylı sənədlər əlaqələrimizin daha sürətlə inkişafına töhfəsini verir. Nazir Azərbaycan-Qazaxıstan əlaqələrinin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirib. P.Şahbazov əlavə edib ki, Azərbaycan Prezidentinin siyasəti nəticəsində ölkəmiz Qazaxıstanla əməkdaşlığını yeni mərhələdə davam etdirir. Bu gün Azərbaycan və Qazaxıstan bir çox sahələrdə olduğu kimi, energetika sahəsində də uğurla əməkdaşlıq edirlər. Bu cür əməkdaşlığın gələcəkdə də inkişaf etdirilməsi yeni enerji layihələrinin reallaşdırılmasına yol açacaq.

# Azərbaycana olan yüksək beynəlxalq etimadın nümunəsi

### Bakı bu il ikinci dəfədir ki, Rusiya-NATO yüksək hərbi rəhbərliyinin danışıqlarına evsahibliyi edir

*Əvvəli 1-ci səh.*

Hər gün kütləvi informasiya vasitələrində NATO və Rusiya hərbçilərinin üz-üzə gəldiyi, təyyarələrinin bir-birinin hava zonasına, gəmilərinin isə dəniz sularına yaxın məsafələrdə manevrlər etdiyi barədə xəbərlər oxuyuruq. Gün kimi aydındır ki, hansısa qığılcım, tərəflərdən birinin emosiyalarını cilovlaya bilməməsi dəhşətli müharibənin başlanmasına səbəb ola bilər. Ona görə istər Rusiya ilə NATO, istərsə də ABŞ ali hərbi heyətləri arasında aparılan danışıqlar potensial hərbi toqquşmaların baş verməməsi üçün mühüm əhəmiyyət daşıyır. Bütövlükdə bu danışıqlar risklərin qarşısının alınması, qarşılıqlı etimadın möhkəmlənməsi işinə xidmət edir.

NATO və Rusiya arasındakı ziddiyyətlər Azərbaycanı narahat etsə də, aparılan danışıqların əslində ölkəmizə heç bir aidiyyəti yoxdur. O baxımdan ki, bu görüşlərdə Azərbaycanla bağlı məsələlər müzakirə olunmur. Bununla belə, bütün dünyanın izlədiyi son görüş ölkəmiz üçün də vacib əhəmiyyət daşıyır. Çünki bu görüş yenə də Bakıda keçirilir.

### Müstəqil siyasətin təzahürü

Artıq Bakıda dördüncü dəfədir ki, bu səpkili görüş keçirildi. Belə görüşlər üçün tərəflər ya hansısa NATO üzvü olan ölkəni, ya Rusiyanı, ya da üçüncü ölkəni seçməli idilər. Amma söhbət tarix boyu bir-biri ilə rəqabətdə olan tərəflərdən getdiyindən görüşün keçirilmə məkanının seçilməsi də siyasi əhəmiyyət kəsb edir. Görünən odur ki, NATO komandanının Moskvaya, onun rusiyalı həmkarının isə NATO üzvü olan dövlətə getməsi məqbul sayılmır. Deməli, bu görüş üçün üçüncü dövlətin seçilməsi zərurəti yaranıb. Üçüncü dövlətlərin sayı isə kifayət qədər çox olsa da, tərəflər hər dəfə məhz Bakını seçirlər. Bunun səbəbləri müxtəlifdir.

İlk növbədə bu hadisə Azərbaycanın müstəqil siyasətinin olduqca mühüm uğurudur. Belə ki, generalların görüş yeri üçün Azərbaycanın seçilməsi rəsmi Bakının həyata keçirdiyi müstəqil siyasətin dünyanın güc mərkəzləri və böyük ölkələri tərəfindən hörmətlə qarşılanmasının və qəbul edilməsinin əyani təsdiqidir. Prezident İlham Əliyevin müstəqil xarici siyasəti nəticəsində Azərbaycan həm NATO, həm də Rusiya ilə ötən 15 ildə qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq əlaqələrini inkişaf etdirib. Üstəlik Azərbaycan Prezidentinin həm NATO üzvü olan dövlətlərin rəhbərləri, həm də Rusiya Prezidenti Vladimir Putinlə qarşılıqlı hörmətə və etimada əsaslanan yüksəksəviyyəli əlaqələri var. Prezident İlham Əliyev Amerikada və Avropada etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider kimi qəbul edilir. Bu mənada generalların görüş yeri üçün Bakının seçilməsi Prezident İlham Əliyevə olan etimadın, eyni zamanda Azərbaycanın dünya miqyaslı nüfuzlu ölkə olmasının və ona böyük hörmətlə yanaşıldığının təzahürüdür.

Bu görüş üçün Bakının seçilməsi həm də təhlükəsizliklə bağlıdır. Təbii ki, söhbət iki böyük dövlətin ordusunun baş qərargah rəisinin görüşündən getdiyindən təhlükəsizlik məsələləri də önə çəkilir. Bu mənada görüş üçün Bakının seçilməsi Azərbaycanda təhlükəsizliyin də yüksək səviyyədə olmasının göstəricisidir.

### Təhlükəsizlik məsələlərinin müzakirə olunduğu strateji mərkəz

Prezident İlham Əliyev dekabrın 12-də Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı dövlət başçısı bildirib ki, Rusiya ilə NATO-nun yüksək hərbi rəhbərliyi arasında görüşün keçirilməsi üçün Bakının seçilməsi bizim ölkəyə hörmətin, etimadın göstəricisidir və bir daha Azərbaycanın dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edən mühüm beynəlxalq tədbirlərin müntəzəm olaraq keçirildiyi məkana çevrildiyini göstərir. Azərbaycan bunu yüksək qiymətləndirir. Öz növbəsində NATO və ABŞ nümayəndələri ilə artıq neçənci dəfədir ki, Bakıda görüşdüklərini qeyd edən Valeri Gerasimov paytaxtımızın bunun üçün çox münasib bir məkan olduğunu və bu cür görüşlər üçün burada hər cür şəraitin yaradıldığını vurğulayıb.

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti də Prezident İlham Əliyevlə görüşdə onu və rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyinə və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşə evsahibliyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. O, Bakının NATO-Rusiya formatında görüşünün keçirilməsi üçün tam münasib məkan olduğunu, Azərbaycanın artıq ikinci dəfədir ki, belə bir tədbirə evsahibliyi etməsinin əhəmiyyətini vurğulayıb.

Bakı artıq dünyada sammitlər, konfranslar, forumlar, multikulturalizm, mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzi kimi tanınır. İndi isə Bakı həm də Rusiya-NATO və Rusiya-ABŞ ali hərbi rəhbərlikləri arasında yüksəksəviyyəli görüşlərin keçirilməsi üçün mühüm şəhərdir. Bu da onu göstərir ki, Azərbaycan həm NATO və Rusiya üçün eyni dərəcədə önəmli, həm də qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu strateji mərkəzdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Avropa Parlamentinin yeni qətnaməsi Azərbaycanın maraqlarına cavab verir

Strasburqda Avropa Parlamentinin plenar sessiyasında qurumun Xarici əlaqələr komitəsinin hazırladığı "Xarici fəaliyyət və təhlükəsizlik siyasəti" üzrə qətnamə müzakirə edilib.

AZƏRTAC xəbər verir ki, Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAlisterin müəllifi olduğu qətnamədə Avropa İttifaqı və ona üzv olan dövlətlərin regional münaqişələrə ikili standartlarla yanaşmasını qadağan edən maddələr yer alıb. Yeni qətnamə Azərbaycanın maraqlarına tam cavab verir. Qətnamədə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrindəki dondurulmuş münaqişələrə vahid mövqedən yanaşma tələb olunur. Sənəddə digər vacib müddəa qaçqın və məcburi köçkünlərlə bağlıdır. Qətnamə Şərq Tərəfdaşlığı regionundakı münaqişələr zamanı yurd-yuvasından didərgin düşmüş insanlara Avropa İttifaqı tərəfindən yardım edilməsini nəzərdə tutur.

Xarici fəaliyyət və təhlükəsizlik siyasətinə dair yekun qətnamənin müzakirəsi zamanı erməni lobbisinin təsiri altında olan bəzi deputatların cəhdləri nəticəsiz qalıb. Onlar qətnaməyə xalqların öz müqəddəratını təyin etməsi ilə bağlı maddənin daxil edilməsini təklif etsələr də, bu təklif böyük səs çoxluğu ilə rədd edilib. Qeyd edək ki, sözügedən yekun qətnamə Avropa İttifaqının xarici siyasət istiqamətlərini müəyyən edən əsas sənəddir.

Erməni lobbisinin maraqlarına xidmət edən bəzi avropalı deputatların cəhdlərinə baxmayaraq, qətnamə böyük səs çoxluğu ilə təsdiqlənib.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev bildirib ki, sənəddə bütün Şərq Tərəfdaşlığı ölkələrinin, o cümlədən Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədləri tanınır. Bu hesabatda vurğulanır ki, Şərq Tərəfdaşlığı ölkələrində dondurulmuş münaqişələrin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Qətnamənin qəbul edilməsi Avropada Azərbaycanın haqq səsinin artıq eşidilməsindən xəbər verir. Bu isə Azərbaycan Prezidentinin uzaqgörən, qətiyyətli və müdrik siyasətinin bəhrəsidir.

Avropa Parlamentinin üzvü Andrejs Mamikinis AZƏRTAC-a bildirib ki, bu sənəd çox vacibdir, Avropa İttifaqının doktrinasıdır. Sənəddə münaqişə zonalarına eyni platformadan yanaşma nəzərdə tutulub. Əvvəllər Gürcüstan, Moldova, Ukrayna kimi ölkələrdəki münaqişələrə eyni yanaşma sərgilənirdi, Azərbaycanla bağlı isə fərqli münasibət mövcud idi. Bu gün qəbul etdiyimiz yekun qətnamə bu cür ikili standartlara son qoyur. İnanıram ki, artıq Avropa Parlamentinin üzvləri Azərbaycanın region üçün daşıdığı əhəmiyyəti dərk edirlər.

"Şərq Tərəfdaşlığı ölkələri ilə münasibətlər Avropa İttifaqı üçün prioritet məsələdir. Bu ölkələrə yanaşmada obyektiv olmalıyıq. Ölkələrə görə onların problemlərinə fərqli münasibət göstərmək məqsədəuyğun deyil. Yekun qətnamə bu çatışmazlığı aradan qaldırır. Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyünə hörmət ifadə edilir. Fikrimcə, bu sənəd ikili standartlardan çıxış edən yanaşmalara son qoyacaq", - deyə Avropa Parlamentinin üzvü Səyyad Kərim bildirib.

## 8,02 milyard dollarlıq müsbət saldo

*Əvvəli 1-ci səh.*

Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 16 faizi Rusiya, 14,2 faizi Türkiyə, 10,3 faizi Çin, 5,7 faizi Almaniya, 4,9 faizi ABŞ, 4,4 faizi İsveçrə, 3,9 faizi Ukrayna, 3,7 faizi Yaponiya, 3,3 faizi İran, 3,0 faizi İtaliya, 2,1 faizi Birləşmiş Krallıq, 1,8 faizi Cənubi Afrika Respublikası, 26,7 faizi digər ölkələrlə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

Hesabat dövründə 1 milyard 351,1 milyon dollarlıq qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2017-ci ilin yanvar-oktyabr aylarına nisbətən faktiki qiymətlərlə 10,9, real ifadədə 1,7 faiz çoxdur.

Yanvar-oktyabr aylarında 2017-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 22,6, kartof - 15,5, bitki yağları - 2,9, meyvə və tərəvəz konservləri - 10,2, polietilen - 21,9, emal olunmamış alüminium - 16,8, qara metallardan borular - 5,1, pambıq ipliyi - 28,0 faiz, təbii üzüm şərabları və üzüm sousu 2, pambıq lifi 2,2 dəfə artmışdır. İdxala gəldikdə, buğda - 0,4, bitki yağları - 0,7, xam şəkər və şəkər - 40,2, kərə yağı, digər süd yağları və pastaları - 19,6, kartof - 17, mal əti - 10,2, təzə tərəvəz - 45,1, polad prokatı - 10,3, rezin şinlər - 6, qara metallardan künclüklər - 2,9 faiz azalmışdır.

***"Azərbaycan"***

## Robototexnika üzrə dünya nəhəngi ilə müqavilə imzalandı








Ölkəmizin STEM mərkəzli təhsil verən ilk məktəbi olan Hədəf Liseyi, "Makeblock" şirkətinin Azərbaycan üzrə eksklüziv nümayəndəsi olaraq mühəndislik tədrisində "Makeblock" məhsullarından istifadə etməklə yanaşı, şirkətlə əlaqədar mövzularda birlikdə seminar, təlim, olimpiadalar keçirməyi və ortaq kurrikulum hazırlamağı nəzərdə tutan müqavilə imzalayıb.

Qeyd edək ki, dünyanın 140 ölkəsində 20000-dən artıq məktəb STEM və kodlaşdırma təhsili üçün "Makeblock" şirkətinin Airblock, mBot, mBlock, Maker kitləri, Ultimate, Neuron kiti, Codey Rocky, mBot Ranger və digər məhsullarından istifadə edir.

2017-ci ildə dünya üzrə 4.5 milyon insanın proqram təminatı və məhsullarından istifadə etdiyi şirkətin satış həcmi, 70 faizi ixrac olmaqla, 30 000 000 ABŞ dolları olub. Şirkət hər il "MakeX" adlı robototexnika yarışına da evsahibliyi edir. Avropa, Amerika, Yaponiya və Honq Konqda şöbələri olan şirkətin məhsullarından istifadə edən məktəb sayı təkcə Fransada 6000-dən çoxdur.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

## Bakıda "İstedadların hazırlığı laboratoriyası" II Beynəlxalq Olimpiadanın qalibləri mükafatlandırılıb

Dekabrın 13-də Bakıda "İstedadların hazırlığı laboratoriyası" II Beynəlxalq Olimpiadanın qalibləri mükafatlandırılıb.



AZƏRTAC xəbər verir ki, tədbirdə gənclər və idman naziri Azad Rəhimov, təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Milli Məclisin deputatları və digər şəxslər iştirak ediblər.

Əvvəlcə Olimpiadadan bəhs edən videoçarx nümayiş olunub.

Sonra beynəlxalq tədbirin iştirakçılarına ölkəmizdə həyata keçirilən irimiqyaslı tədbirlər barədə məlumat verilib. Qeyd olunub ki, Azərbaycanda 2015-ci ildə ilk Avropa Oyunları, iki il sonra IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları, dünya və Avropa çempionatları yüksək səviyyədə təşkil olunub. Həmçinin ölkəmiz beynəlxalq fənn olimpiadalarına da evsahibliyi edib.

Gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək Olimpiadanın əhəmiyyətini yüksək qiymətləndirib. Nazir deyib ki, Olimpiadada iştirak böyük şərəf olmaqla yanaşı, ciddi məsuliyyət tələb edir. Çünki hər bir iştirakçı öz ölkəsini, təhsil aldığı məktəbi təmsil edir. Belə tədbirlər yeniyetmələrin inkişafında xüsusi rol oynayır. Olimpiadada onlayn olaraq 5 mindən artıq məktəbli iştirak edib. Onların arasından seçilənlər yarışın final mərhələsinə vəsiqə qazanıblar.

"Artıq iki ildir Olimpiada beynəlxalq status alıb. Digər ölkələrdən iştirakçıların Olimpiadaya qatılması rəqabəti daha da artırır. Bu, həmçinin məktəblilər arasında daha geniş fikir mübadiləsinin aparılmasına və yeni dostluqlara imkan yaradır", - A.Rəhimov əlavə edib.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva ölkəmizin müxtəlif fənn olimpiadalarına yüksək səviyyədə evsahibliyi etdiyini vurğulayıb. Nazir müavini bildirib ki, Azərbaycanda təkcə elmlə bağlı deyil, idman, mədəniyyət və digər sahələr üzrə də mötəbər tədbirlər təşkil olunur. Yeniyetmələrimiz beynəlxalq olimpiadalarda ölkəmizi layiqincə təmsil edir, mükafatçılar sırasında yer alırlar. Nazirliyin nəzdində olimpiadalara hazırlıq mərkəzinin beş ildir fəaliyyət göstərdiyini vurğulayan M.Vəliyeva gələn ilin avqustunda ölkəmizdə informatika Olimpiadasının təşkil olunacağını diqqətə çatdırıb.

Sonra Gənclər və İdman Nazirliyinin şöbə müdiri İndira Hacıyeva "Milli ideya və beynəlxalq təcrübə" adlı təqdimatla çıxış edib.

Daha sonra mükafatlandırma mərasimi təşkil olunub.

Komanda yarışlarında Rusiya birinci, Özbəkistan ikinci, Tacikistan komandası üçüncü pillədə qərarlaşıblar. Olimpiadanın fərdi qalibləri də mükafatlandırılıb. Onlara medal, diplom və qiymətli hədiyyələr təqdim olunub. Komanda yarışının qaliblərinə isə kubok verilib.

İkinci Beynəlxalq Olimpiadaya Azərbaycan, Belarus, Estoniya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Tacikistan və Türkmənistandan olan məktəblilər qatılıblar.

"İstedadların hazırlığı laboratoriyası" II Beynəlxalq Olimpiada Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasının təmin edilməsi məqsədilə Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunub. 14-16 yaşlı yeniyetmələrin iştirak etdikləri Olimpiada riyaziyyat, fizika və kimya fənləri üzrə keçirilib. Beynəlxalq Olimpiadada cari ilin noyabrında "İstedadların hazırlığı laboratoriyası" VI Respublika Olimpiadasının onlayn turlarının qalibi olan azərbaycanlı iştirakçılar da yarışıblar.

Olimpiadanın keçirilməsində məqsəd məktəblilər arasında elmi-tədqiqat fəaliyyətinə marağın aşkar edilməsi, onların inkişafı üçün lazımi rəqabət mühitinin formalaşdırılması, elmi biliklərin təbliği, alim və tədqiqatçıların yeniyetmə və gənclərlə işə cəlb olunması, istedadlı yeniyetmələr arasında beynəlxalq əlaqələrin formalaşdırılması üçün şəraitin yaradılmasından ibarətdir.

2013-cü ildən başlayaraq hər il respublika səviyyəsində keçirilən Olimpiadaya 2017-ci ildə beynəlxalq status verilib. Həmin il Bakıda 8 ölkənin iştirakı ilə "İstedadların hazırlığı laboratoriyası" I Beynəlxalq Olimpiada keçirilib. İndiyədək bu elmi müsabiqəyə 13 mindən artıq azərbaycanlı yeniyetmə qatılıb.

## Alazan çayının kənarında gizlədilən 110 ədəd pirotexniki vasitə aşkarlanaraq götürülüb



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi və qaçaqmalçılığa qarşı mübarizə tədbirləri davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Zaqatala" sərhəd dəstəsinin Qax rayonunun Lələli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində Alazan çayının kənarında gizlədilmiş 2 ədəd bağlamada müxtəlif çeşidli 110 ədəd pirotexniki vasitə aşkarlanaraq götürülüb.

Qeyd olunan faktlarla əlaqədar əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün təsərrüfat və azqiymətli malların satın alınması üzrə

### *tender elanı*

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq təsərrüfat və azqiymətli malların satın alınması üzrə açıq tender keçirir.

Tender proseduru 31 yanvar 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə Azərbaycan dilində tender təklifi (tender təklifi 15 mart 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank zəmanəti formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafıq dövlət orqanlarından arayış;*
- *iddiaçının son 2 (iki) il ərzində təsərrüfat və azqiymətli malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar. Son 2 (iki) il ərzində xidmət göstərilən müştərilərin adları və göstərilən işlərin açıqlaması verilməlidir;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 30 yanvar 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 21 yanvar 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

4. İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**SWIFT BİK: NABZAZ2C**

Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.

5. Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

6. Malların təqdim edilmə müddəti: satınalma müqaviləsi imzalandığı gündən sifariş əsasında 1 (bir) il müddətində.

7. Qiymətləndirmə meyarları: maliyyə amili və korporativ müştərilərin sayı.

8. Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxslər:

Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22, daxili (428)

Zöhrab Səfərəliyev (İnzibati departament). Telefon: 493-11-22, daxili (101).

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

### Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universiteti internet xidmətinin və digər kommunal xidmətlərin təşkili üzrə kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (+994 12) 493 00 26 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 18 dekabr 2018-ci il tarixdə saat 17:00-dək qəbul olunur.
Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli, 68.

*Tender komissiyası*

*Təkrar*

### "Bakı Metropoliteni" QSC "Bakmil" stansiyasının vestibülünün damında "A", "B" və "V" oxları arasında ferma tipli metal örtüyün qurulması və Texnoloji Korpusda və 20 stansiyada SCADA proqram təminatı əsasında 220 V dəyişən cərəyan və 24 V sabit cərəyan şəbəkələrinin elektrik parametrlərinin otürülməsi işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakmil" stansiyasının vestibülünün damında "A", "B" və "V" oxları arasında ferma tipli metal örtüyün qurulması işlərin satın alınması**

**LOT-2. Texnoloji Korpusda və 20 stansiyada SCADA proqram təminatı əsasında 220 V dəyişən cərəyan və 24 V sabit cərəyan şəbəkələrinin elektrik parametrlərinin otürülməsi işlərinin satın alınması**

**İştirak haqqı LOT-1 - 150 manat**
**LOT-2 - 150 manat**
**Hesabın adı: "BAKI METROPOLITENI" QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **07 yanvar 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **15 yanvar 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 yanvar 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

*Təkrar*

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi

### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi öz tabeliyindəki respublikanın şəhər və rayonlarında yerləşən mühafizəyə ehtiyacı olan müəssisələrdə gözətçi və patrul xidmətlərinin satın alınması üzrə açıq tender elan edir.

Tenderdə gözətçi və patrul xidmətlərinin göstərilməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 212, tel.: +99412 490-24-08, əlavə 103; faks: +99412 490-33-59) ünvanından ala bilərlər:

**Emitent**
Dövlət Xəzinədarlıq Agentliyi
Bank kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı: AZ41NABZ01360100000000003944
S.W.I.F.T. bik: CTREAZ22
**Alan**
Əmlak Məsələləri Dövlət Komitəsi
VÖEN: 2000015631
H/H: AZ84CTRE00000000000002647970
Büdcə səviyyəsinin kodu - 7
Büdcə təsnifatının kodu - 142340
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).
4. Tender təklifi dəyərinin 2 (iki) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).
5. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış.
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış.
7. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri.
8. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd.
9. İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər.
10. Digər sənədlər (tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində "Əsli" və "Surəti" yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük üzərində "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 12 (on iki) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- iddiaçının bu sahədəki iş təcrübəsi;
- iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;
- görüləcək işlərin dəyəri.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 11 yanvar 2019-cu il tarixə qədər (saat 17:00-dək), tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 22 yanvar 2019-cu il tarixə qədər (saat 17:00-dək) Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 212, əlaqələndirici şəxs - Zəka İskəndərbəyli) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 23 yanvar 2019-cu il tarixdə (saat 11:00-da) Bakı şəhəri Xətai rayonu Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

*Tender komissiyası*

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### "Sarı jiletlər"in aksiyasında daha bir nəfər öldü



Fransanın cənub-şərqində, Avinyon şəhərində "sarı jiletlər"in etiraz aksiyası zamanı yük avtomobilinin vurması nəticəsində bir nümayişçi həlak olmuşdur. Bu barədə "El-se-i" telekanalı xəbər verir.

Məlumata görə, hadisə srağagün gecə Avinyonun yaxınlığındakı dairəvi yol qovşağında baş vermişdir. Yük maşınının 26 yaşlı sürücüsü saxlanmışdır. Ölənin 23 yaşı varmış.

Beləliklə, "sarı jiletlər"in etirazları zamanı ölənlərin sayı 6 nəfərə çatmışdır.

Xatırladaq ki, ötən ayın ortalarından bəri Fransada avtomobil yanacağının qiymətinin artmasına etiraz əlaməti olaraq kütləvi aksiyalar keçirilir. Nümayiş iştirakçıları avtomobilçilər kimi "sarı jiletlər" geyinirlər. Bununla əlaqədar hərəkat "sarı jiletlər" adı almışdır.

### Mey Böyük Britaniyanın Baş naziri vəzifəsində qaldı



Hakim Mühafizəkarlar Partiyasının lideri və Böyük Britaniyanın Baş naziri Tereza Mey İcmalar Palatasında səsvermə zamanı mühafizəkar deputatların dəstəyi sayəsində vəzifələrini qoruyub saxlamışdır. Bu barədə gizli səsvermənin yekunlarından danışarkən Mühafizəkarlar Partiyasının 1922 komitəsinin başçısı Qrem Breydi məlumat vermişdir.

Zərurət yarananda partiyanın yeni sədrinin müəyyənləşdirilməsində əsas rol oynayan parlament qurumu liderinin dediyinə görə, Mühafizəkarlar Partiyasının 200 deputatı Meyin lehinə səs vermişdir. 117 deputat Baş nazirin əleyhinə çıxmışdır. Vəzifəsini qorumaq üçün Meyə səs verənlərin yarısının dəstəyi üstəgəl bir səs qazanmaq tələb olunurdu.

Müşahidəçilərin fikrincə, 83 səs fərqi ilə üstünlük qazanmaq Meyin böyük qələbəsidir. Politoloqlar hesab edirlər ki, Baş nazir indi "sərt Brexit"ə nail olmaq istəyən əleyhdarlarının səsini kəsə biləcək və Meyin Böyük Britaniyanın Avropa İttifaqından (Aİ) çıxması şərtləri barədə Aİ ilə sövdələşməni parlamentdən keçirmək şansları artır.

### Ankarada qatar qəzası: 9 nəfər həlak oldu



Ankara-Konya marşrutu ilə hərəkət edən sürətli sərnişin qatarı Yeniməhəllə rayonunun Marşandiz stansiyasında yerüstü piyada keçidinə çırpılmışdır. Nəticədə iki vaqon relslərdən çıxaraq aşmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Zərbə nəticəsində yerüstü keçidin bir hissəsi vaqonların üstünə düşmüşdür.

Ankara qubernatoru Vasip Şahinin dediyinə görə, sürətli qatarın qəzaya uğraması nəticəsində 9 nəfər həlak olmuş, 43 nəfər yaralanmışdır. Ölənlərin üçü qatar maşinistidir.

### İnterpol hindistanlı milyarderin həbsinə order verdi

İnterpol Hindistandan qaçmış milyarder Mexhul Çoksinin həbsinə qırmızı bildiriş adlanan order vermişdir. Hindistanlı Pəncab Milli Bankında 2 milyard dollardan çox məbləğdə pulun oğurlanmasında şübhəli bilinir. Bu barədə "The Times of İndia" qəzeti xəbər verir.

Mehul Çoksi və onun bacısı oğlu Nirav Modinin həmin məbləği mənimsəmək üçün Pəncab Milli Bankının əməkdaşları ilə sövdələşməsi müəyyən olunduqdan sonra Hindistanın Mərkəzi Təhqiqatlar Bürosu onların barəsində axtarış elan etmişdir.

Hindistan tarixində bu cür iri fırıldaqçılıq barədə ötən ilin axırlarında xəbər yayılmışdı. Cari ilin yanvarında Çoksi ən yaxın qohumları ilə birlikdə ölkədən qaçmışdır. Onun gizləndiyi yer məlum deyil.

### ABŞ qırıcısı okeana düşdü

ABŞ hərbi hava qüvvələrinin qırıcı təyyarəsi Oahu adasının yaxınlığında suya düşmüşdür. Bu barədə ABC telekanalı xəbər verir.

Məlumata görə, "Hawker Hunter" qırıcısı Honolulu beynəlxalq aeroportundan havaya qalxdıqdan bir neçə dəqiqə sonra qəzaya uğramışdır. 47 yaşlı pilot paraşütdən istifadə edərək xilas olmuşdur. O, ağır vəziyyətdə xəstəxanaya çatdırılmışdır.

Uçuş "Sentry Aloha" hərbi təlimləri çərçivəsində həyata keçirilirmiş. Doqquz ştatdan 800 nəfərin və 30 təyyarənin qatıldığı təlimlər dayandırılmışdır.




### Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Sarıcalı, Novruzlu, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri Əvəz Ələkbərova əzizi

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İlqar Fərzəliyev və Milli Məclis Aparatı Dövlət qulluğu və kadr məsələləri şöbəsinin əməkdaşları Zamin və Aynur Nurəhmədovlara əzizləri

**SÜRƏYYA QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri İbrahim Yusifzadə və şöbənin əməkdaşları Emil Tağıyev, Rüfət Məmmədov, Fuad Piriyev, Anar Vəliyev, Səid Müslümov, Samir Ələkbərov, Cavid İskəndərov, Rauf Əliyev və Sənəm Xəlilova Milli Məclis Aparatı İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərova əzizi

**SÜRƏYYA QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Adil Məmmədov və Qobustan Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Niyazi və Nizami Səfərov qardaşlarına əzizləri

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsmayıllıdan Mirdaməd Sadıqov Azərbaycan Dövlət İqtisad Universiteti Maliyyə və maliyyə institutları kafedrasının müdiri, professor Əvəz Ələkbərova qayınanası

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin rəhbərliyi və kollektivi İdarənin Rusiya Federasiyasındakı nümayəndəliyinin əməkdaşı Balabəy Balabəyova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Biologiya fakültəsinin Biofizika və molekulyar biologiya kafedrasının professoru

**XANLAR ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Maliyyə və maliyyə institutları kafedrasının müdiri, professor Əvəz Ələkbərova əzizi

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 27 nömrəli poliklinikasının kollektivi əzizləri

**GÜLNARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3723